

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 35 (24.470)

13 sentyabr 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Müasir çağırışlar, mühüm təşəbbüslər




***Böyük Qayıdış: "yaşıl iqtisadiyyat", "yaşıl enerji"***

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfərdən sonra dövlət siyasətinin əsas iki prioritetindən birini hərbi gücün artırılması, digərini isə azad olunan torpaqlara Böyük Qayıdış proseslərinin uğurla reallaşdırılması təşkil edir. Bu məqsədlə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın prioritetləri sırasında soydaşlarımızın geri qayıdışının təmin olunması ilə yanaşı, Qarabağda, Şərqi Zəngəzurda qeyri-neft sektorunun inkişafı, "yaşıl iqtisadiyyat"a keçid, "yaşıl texnologiya"ların tətbiqi də yer alıb. Proqramda qeyd edilir ki, ərazilərdə meşə fondunun, flora və faunanın bərpası, enerji səmərəliliyi və ekoloji təmiz texnologiyaların tətbiqi, su ehtiyatlarından səmərəli istifadə, bərk məişət tullantılarının idarə edilməsi üçün müasir infrastrukturla təmini kimi məsələlər əsas prioritetlərdən birini təşkil edir. Eyni zamanda 2022-ci il mayın 3-də Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncam da bu istiqamətdə reallaşdırılacaq layihələrə dair vahid konsepsiya və hədəfləri müəyyənləşdirib.

Səhifə ➡ 2

## 2025-ci ilin yanvar-avqust aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Səhifə ➡ 5

## Naxçıvanda "Gənclərin şəxsi inkişaf həftəsi" layihəsi həyata keçirilib



Səhifə ➡ 3

## Azərbaycanın təhsil strategiyası: *beynəlxalq təcrübə, səriştəli müəllim və qabaqcıl texnologiyalar*



Səhifə ➡ 6-7

## Qələbə ətrinə qovuşdu torpaq



Səhifə ➡ 9

## Şuşa – qəhrəmanlığın, vətənsevərliyin ən uca zirvəsi



Səhifə ➡ 10

## Saxta məktəbli formalarını necə ayırd etmək olar?



Səhifə ➡ 12


Naxçıvanda "Yay düşərgəsi"ndə iştirak edən uşaqlarla görüş keçirilib 3

Naxçıvan iqtisadi rayonunda 2026-cı il üzrə əkin və məhsul subsidiyalarının tətbiqi barədə məlumat 4

Üzeyir bəy Hacıbəylinin yaradıcılığında yeni dramaturji janrlar, məzmun və ifadə çalarları 11

# Müasir çağırışlar, mühüm təşəbbüslər

(əvvəli 1-ci səhifədə)



***Qarabağ və Şərqi Zəngəzurun elektrik enerji tələbatı 100 faiz "yaşıl enerji" hesabına təmin edilir***

Azərbaycan Qarabağ və Şərqi Zəngəzur üzrə 2050-ci ilə qədər sıfır karbon emissiyası öhdəliyi götürüb, ötən bir neçə ildə həmin ərazilərdə yaşıl infrastrukturun qurulması, "yaşıl iqtisadiyyat"a keçid prosesində ciddi addımlar atılıb. Bu baxımdan əsas inkişaf istiqamətləri kimi bərpa olunan enerji mənbələrindən istifadə və sənayenin inkişafına dair layihələrin icrası daha qabarıq şəkildə özünü göstərir. Birinci istiqamət üzrə onu vurğulamaq olar ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji zonası"nın yaradılması üzrə Tədbirlər Planı"nın icrası nəticəsində təkcə 2024-cü ildə Qarabağ və Şərqi Zəngəzurda 7 su elektrik stansiyasının açılışı olub. Belə ki, Kəlbəcər rayonunda son dörd ildə "AzərEnerji" tərəfindən işğaldan azad edilən ərazilərdə tikilən ən böyük su elektrik stansiyası – 22,5 MVt-lıq "Yuxarı Vəng", 4,3 MVt-lıq "Zar", Laçın rayonunda 2,8 MVt-lıq "Zabux", 4,6 MVt-lıq "Qarıqışlaq", Zəngilan rayonunda isə hər birinin gücü 10,5 MVt olmaqla "Şayıflı", "Zəngilan" və "Sarıqışlaq" su elektrik stansiyaları istismara verilib.

Ümumilikdə, 4 il ərzində işğaldan azad olunan torpaqlarda 270 MVt gücündə 32 su elektrik stansiyası istismara buraxılıb və 2025-ci ildə daha 11 su elektrik stansiyasının açılışı plandadır. Növbəti illərdə əlavə olaraq 200 MVt-lıq su elektrik stansiyalarının tikilməsi nəzərdə tutulur. Qarabağ və Şərqi Zəngəzur regionunda həyata keçirilən "yaşıl enerji zonası"nın yaradılması məqsədilə 2030-cu ilə qədər isə ümumi gücü 467 MVt olan 72 kiçik su elektrik stansiyası olacaq. Qarabağın mövcud təbii potensialı və bu potensialdan səmərəli istifadə reallaşdırılan layihələrin töhfələr vermәsinə yol açıb, 2024-cü ildə Qarabağ və Şərqi Zəngəzurdakı 32 su elektrik stansiyasında "AzərEnerji" tərəfindən 550 milyon kilovat-saatadək ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal olunub. Həmin 550 milyon kilovat-saat enerjinin üçdəbiri, yəni 200 milyon kilovat-saata yaxını işğaldan azad edilən ərazilərin enerji tələbatını ödəyib, qalan üçdəiki hissəsi isə respublika enerji sisteminə ötürülərək ölkənin digər yerlərinin tələbatına yönləndirilib. Nəticədə, 120 milyon kubmetr təbii qaza qənaət edilib, 225 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Təqdirəlayiq haldır ki, ölkənin enerji sistemi tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzurun elektrik enerjisi tələbatı 100 faiz "yaşıl enerji" hesabına təmin edilir və tələbatdan artıq qalan həcm ölkə enerjisi sisteminə ötürülür.

***"Yaşıl iqtisadiyyat"a uğurlu keçid, qeyri-neft sənayesinin inkişafı***

Zəngilan rayonunda Ağalı kəndinin "ağıllı kənd" konsepsiyası əsasında inşası ilə start götürən "yaşıl iqtisadiyyat"a keçid prosesi daha sonra digər kəndləri, şəhərləri o cümlədən Laçını, Ağdamı, Xocalını, Füzulini, Şuşanı, Xankəndini də əhatə edib. Bu gün Ağalı kəndinin küçələrinin "ağıllı" işıqlandırılması, yaşayış məntəqəsində isti və soyuğadavamlı ekoloji evlərin inşası, günəş panellərinin quraşdırılması kimi müasir şəhərsalma standartları tətbiq olunur. Ağdam rayonunun Baş Qərvənd, Füzulinin Dövlətyarlı kəndləri "ağıllı kənd" konsepsiyası əsasında tikilir. Həmçinin Laçın şəhərinin özündə, Zabux və Sus kəndlərində fərdi yaşayış evlərində, müəssisələrdə, təşkilatlarda "yaşıl texnologiya"lardan istifadə edilir.

"Yaşıl iqtisadiyyat"a uğurlu keçidi təmin edən əsas istiqamətlərdən biri də sənaye müəssisələrinin yaradılması, "yaşıl texnologiya"ların istehsalata tətbiqi və beləliklə də, qatqısız, ekoloji cəhətdən saf, təmiz məhsul istehsalına nail olunmasıdır. Bu baxımdan innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi məqsədlərinə xidmət edən sənaye parkları modelinin əhəmiyyəti kifayət qədər böyükdür. Hazırda ölkə üzrə 9 rayonu əhatə edən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları fəaliyyət göstərir. Onlardan ikisi yerləşdiyi coğrafiya, nəqliyyat-logistika imkanları baxımından əlverişli olan Ağdam və Cəbrayıl rayonlarında yaradılıb. Əsas məqsəd qeyd etdiyimiz kimi, işğaldan azad olunan ərazilərdə iqtisadi siyasətin ən vacib istiqamətlərindən biri sayılan sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafına təkan verməkdir. Əminliklə vurğulamaq olar ki, sənaye parklarının fəaliyyəti gələcəkdə dayanıqlı məskunlaşma, iqtisadi fəaliyyətin canlanması və nəqliyyat-logistika imkanlarından istifadəni təmin etməklə regional iqtisadi-ticarət əlaqələrini genişləndirəcək.

Ağdam Sənaye Parkında hazırda 9 müəssisə fəaliyyət göstərir, 5-dən çox müəssisənin tikintisi isə davam etdirilir. Parkın artıq 70 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib. Sahibkarlar tərəfindən görülən işlərə 115 milyon manatdan çox investisiya yatırılıb, 653 nəfər daimi işlə təmin edilib. Parkda fəaliyyət göstərən müəssisələr tərəfindən 2024-cü ilin sentyabrından 2025-ci ilin birinci rübü daxil olmaqla, 85 milyon manatlıq, cari ilin birinci rübü ərzində isə 63 milyon manatlıq məhsul istehsal olunub. İstehsal edilən məhsulların daxili bazara çıxarılması ilə yanaşı, ixrac edilməsi istiqamətində də uğurlar əldə edilməkdədir. Belə ki, cari ildə müxtəlif çeşiddə qoruyucu ayaqqabı və poliuretan çəkmələrin istehsalı üzrə ixtisaslaşmış "BAFCO İnvest" MMC tərəfindən Rusiya, Qazaxıstan, Özbəkistan və Birləşmiş Ərəb Əmirliklərinə məhsul ixrac edilib. Hazırda ixracyönümlü fəaliyyətə dair müvafiq işlər həyata keçirilir.

Xankəndi şəhərində Azərbaycan-Özbəkistan birgə investisiyası sayəsində yeni tikiş fabrikinin istifadəyə verilməsi isə həm tarixi ənənələrin bərpasına, bölgəyə qayıdan sakinlərin, xüsusilə də qadınların məşğulluğunun artırılmasına xidmət edir, həm də regionda yüngül sənayenin inkişafına təkan verir. Ümumi investisiya dəyəri 11 milyon manat təşkil edən fabrika həm yerli, həm də Özbəkistan xammalı əsasında fəaliyyət göstərir. Müəssisədə istehsal olunacaq məhsulların 80 faizi müxtəlif ölkələrə ixrac ediləcək. Ərazisi 1,2 hektar olan fabrikdə ildə 3-5 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal olunacaq. Müəssisə işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşların məşğulluğunun təmin olunmasında mühüm rol oynamaqdadır. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim almış 250 nəfər işlə təmin olunub. Ümumilikdə isə müəssisədə 800 iş yerinin yaradılması nəzərdə tutulur.

Göründüyü kimi, Azərbaycan yerləşdiyi coğrafiyada həm tarixi ədaləti bərpa edir, həm də müasir çağırışlara tutarlı cavab verən təşəbbüslər irəli sürür, gələcəyə yönəlik həm siyasi, həm də iqtisadi cəhətdən effektiv yanaşmalar ortaya qoyur. Nəzərə alsaq ki, hazırkı dünyamızın qarşısında duran əsas problem, həllivacib məsələ atmosferə atılan tullantıların miqdarının azaldılması üçün "yaşıl iqtisadiyyat"a keçid, "yaşıl enerji"dən səmərəli istifadədir, o zaman respublikamızın Qarabağ və Şərqi Zəngəzurda reallaşdırdığı layihələrin önəmi daha çox özünü göstərir. Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunda jurnalistin sualına cavab olaraq bir daha ölkəmizin "yaşıl enerji" gündəliyinin geniş olduğunu vurğuladı və bu gündəlikdə duran məsələlərin həlli baxımından Qarabağın, Şərqi Zəngəzurun potensial imkanlarını yüksək qiymətləndirdi: ***"2030-cu ilə qədər artıq imzalanmış investisiya müqavilələri əsasında biz ən azı 6 qiqavatlıq "yaşıl enerji"ni, o cümlədən günəş, külək və su elektrik enerjisini istehsal edəcəyik. Su elektrik enerjisi Qarabağ və Şərqi Zəngəzurda əsas yer tutur. Biz ümumi 280 meqavat gücündə 30 kiçik su elektrik stansiyasını artıq istismara vermişik. Beləliklə, yaşıl gündəliyimiz, həqiqətən, çox genişdir. Eyni zamanda mənim mesajım, ev sahibi olan Azərbaycanın mesajı ondan ibarət idi ki, biz həmin məsələyə realist və praqmatik yanaşmalıyıq. Hamımız anlayırıq ki, biz planeti qorumalıyıq. Lakin ətraf mühit böhranına ən çox rəvac verənlər, yəqin ki, bu yükü öz üzərinə götürməlidirlər".***

**"Şərq qapısı"**



# Naxçıvanda “Yay düşərgəsi”ndə iştirak edən uşaqlarla görüş keçirilib





“Konstitusiya və Suverenlik İli” çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində xüsusi kateqoriyadan olan uşaqlar üçün “Zəfər yolunun davamçıları” adlı “Yay düşərgəsi” təşkil edilib.

Sentyabrın 9-da “Yay düşərgəsi” iştirakçıları ilə görüş keçirilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli səmimi söhbət zamanı qeyd edib ki, gələcəyimiz olan uşaqlara xüsusi qayğı Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Ölkə başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva da bu istiqamətdə siyasəti uğurla davam etdirir, uşaqlara göstərilən diqqət və qayğının miqyası ildən-ilə artır. Bu gün təşkil olunan “Zəfər yolunun davamçıları” adlı “Yay düşərgəsi” də dövlət uşaq siyasətinin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” barədə məlumat verən səlahiyyətli nümayəndənin müavini qeyd edib ki, Dövlət Proqramında ölkəmizin sabahı olan uşaqların təhsili, sağlamlığı və layiqli vətəndaş kimi böyüməsi üçün tədbirlərin görülməsi əhatəli əksini tapıb.

Samir Seyidəhmədli düşərgənin yeni dostluqlar qazanılması, birlik və vətənpərvərlik duyğularının yüksəldilməsi baxımından yaxşı bir fürsət olduğunu bildirib, uşaqlara yaradılan şəraitdən səmərəli istifadə etməyi tövsiyə edib, onlara xoş və mənalı istirahət arzulayıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova qeyd edib ki, Naxçıvanda daimi monitorinqlər aparılır, sosial qayğıya ehtiyacı olan, o cümlədən valideyn himayəsindən məhrum olan uşaqların təhsili, sağlamlığı, reabilitasiyası və cəmiyyətə inteqrasiyası təmin olunur. O cümlədən yeni tədris ili ərəfəsində məktəbli ləvazimatları, dərs vəsaitləri, eləcə də xüsusi və bayram günlərində müxtəlif hədiyyələr təqdim olunur.




Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev Naxçıvanda xüsusi kateqoriyadan olan uşaqların iştirakı ilə düşərgə və digər tədbirlərin keçirilməsinin davamlı xarakter aldığını vurğulayıb, yay və qış düşərgələrinin bundan sonra da davam etdiriləcəyini bildirib.

Qeyd edib ki, 9-11 sentyabr tarixlərini əhatə edən “Zəfər yolunun davamçıları” adlı düşərgədə müxtəlif yaş qrupları üzrə 29 uşaq, eləcə də 5 nəzarətçi iştirak edib. Düşərgə iştirakçıları arasında Naxçıvan Muxtar Respublikası ilə yanaşı, Bakı şəhərindən də dəvət olunmuş uşaqlar var idi.

Uşaqlar səmimi söhbətə və düşərgənin təşkilinə görə minnətdarlıq ediblər.

Sonda xatirə fotosu çəkdirilib.

# Naxçıvanda “2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın icrasına hazırlıqla bağlı müşavirə keçirilib



Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti xəbər verir ki, Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov “2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın icrasına hazırlıqla bağlı onlayn müşavirə keçirmişdir.

Müşavirədə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli Sərəncamından irəli gələn vəzifələr müzakirə olunub. Baş nazir qeyd edib ki, yeni strategiyanın hazırlanması prosesində Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ə uyğun olaraq ölkəmizin ötən illərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin davamlı şəkildə artırılması məqsədilə verilmiş tapşırıqlar çərçivəsində Naxçıvan Muxtar Respublikasının mövcud imkanları nəzərə alınmalı, qarşıya qoyulan hədəflər real, dəqiq və ölçülə bilən indikatorlara əsaslanaraq muxtar respublikanın sosial-iqtisadi inkişafı üçün zəruri məsələlər hərtərəfli qiymətləndirilməli və növbəti dövr üçün əhəmiyyətli layihələr də diqqətdə saxlanılmalıdır.

Ceyhun Cəlilov vurğulamışdır ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına mühüm töhfələr verəcək təkliflərin hazırlanması istiqamətində zəruri addımlar atılmalı, təşkilati məsələlər operativ şəkildə yekunlaşdırılmalı və strategiyada nəzərdə tutulacaq təkliflər müzakirə olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə təqdim edilməlidir.

# “Gənclərin şəxsi inkişaf həftəsi” layihəsi həyata keçirilib

“Naxçıvan Təlim Mərkəzi” PHŞ və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə gənclərin potensialının üzə çıxarılması və inkişafına xidmət edən “Gənclərin şəxsi inkişaf həftəsi” keçirilib.

Həftə çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Tükəzban Quliyeva “Karyeranı planlaşdır və gələcəyini inşa et!” mövzusunda təlim keçib. Təlim zamanı karyera planlaşdırılmasında şəxsi inkişafın düzgün istiqamətdə qurulmasının əhəmiyyəti, məqsədyönlü fəaliyyətin gələcək uğurlar üçün həlledici rolu və özünüinkişaf vərdişlərinin karyera perspektivinə təsiri barədə ətraflı məlumat verilib. Sessiya gənclərin fəal iştirakı ilə keçirilib, suallar cavablandırılıb və müzakirələr aparılıb. Təlimdə karyera planlama səviyyəsinin ölçülməsi ilə bağlı sorğu keçirilib, sorğunun nəticələri müzakirə olunub. Karyera planlamasında hədəf və məqsədlərin müəyyənləşdirilməsi ilə bağlı interaktiv qrup işi keçirilib.





Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova isə gənclərə “Motivasiya: uğura aparan yol” mövzusunda təlim keçib. Təlim zamanı motivasiyanın insan həyatında oynadığı rol, şəxsi inkişaf və karyera yolunda əhəmiyyəti, pozitiv həyat tərzinin formalaşdırılması, məqsədyönlü fəaliyyətin uğura təsiri barədə iştirakçılara ətraflı məlumat verilib. Görüşdə interaktiv üsullardan istifadə olunub. Gənclərin mövzuya yanaşmasını öyrənmək məqsədilə sorğu keçirilib, komanda işi və yaradıcı düşüncə bacarıqlarını inkişaf etdirən oyun təşkil olunub. İştirakçıların motivasiya ilə bağlı sualları ətraflı cavablandırılıb, onların fikir və təklifləri dinlənilib.






Təlimdə vurğulanıb ki, uğura gedən yolda insanın əsas güc mənbəyi öz daxili motivasiyasıdır. Ona görə də gənclərin bu keyfiyyəti inkişaf etdirməsi, qarşıya qoyduqları məqsədlərə fokuslanaraq addım atması xüsusi əhəmiyyət daşıyır.

Qeyd edək ki, “Gənclərin şəxsi inkişaf həftəsi” çərçivəsində “Naxçıvan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini, sədr vəzifələrini icra edən İlhamə Novruzovanın “İlhamlandır və irəli apar!”, Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Gülxanım Orucovanın “Layihələrin idarə edilməsi” və Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun məsləhətçisi Aslan Səfərovun “Sosial şəbəkələr və şəxsi brend: effektiv start” mövzularında təlimləri də olub.

Təlimin sonuncu günündə təşkilatçı qurum rəhbərlərinin iştirakı ilə gənclərlə görüş keçirilib. Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifələrini icra edən Məcid Seyidov gənclərin şəxsi inkişafı istiqamətində görülən işlər barədə danışıb, gənclərin peşə və karyera imkanlarının artırılması amilinin nazirlik üçün daim aktuallıq təşkil etdiyini diqqətə çatdırıb.

Təlimlərin gənclər üçün faydalı olacağına inamını ifadə edən “Naxçıvan Təlim Mərkəzi” PHŞ İdarə Heyətinin sədri Bəhruz Nəzərov mövzu seçimi zamanı aktuallıq və faydalılıq prinsipinin əsas götürüldüyünü, o cümlədən təlimçi qismində öz sahələrində uğurlu karyerası, böyük təcrübəsi olan şəxslərə üstünlük verildiyini diqqətə çatdırıb.

Çıxışların ardınca rəsmilər “Gənclərin Şəxsi İnkişaf Həftəsi” təlim proqramının iştirakçılarına sertifikat təqdim ediblər.

# Naxçıvan iqtisadi rayonunda 2026-cı il üzrə əkin və məhsul subsidiyalarının tətbiqi barədə məlumat





Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, Aqrar Subsidiya Şurası Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın 2.4-cü bəndinə müvafiq olaraq 2026-cı il üzrə bitkiçilik sahəsində bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının və əkin ehtiyaclarının müəyyən edilməsi barədə qərar qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aqrar sahəyə göstərdiyi diqqət və qayğının davamı kimi qəbul edilən bu qərar Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli, 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda əksini tapan ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, məhsuldarlığın artırılması, su resurslarından səmərəli istifadə, kənd təsərrüfatı ilə emal sənayesinin inteqrasiyası və yüksək əlavə dəyərli məhsul istehsalının genişləndirilməsi hədəflərinə xidmət edir.

Qərarda Naxçıvan Muxtar Respublikası üçün ayrıca əmsalların müəyyən olunması dövlətimizin muxtar respublikaya göstərdiyi xüsusi diqqət və qayğının aydın təzahürüdür. Bu qərar Dövlət Proqramının strateji hədəfləri ilə uzlaşaraq Naxçıvan iqtisadi rayonunda kənd təsərrüfatının daha da inkişafına, fermerlərin dövlət dəstəyi imkanlarından geniş istifadə etməsinə və kənd təsərrüfatı ilə emal sənayesi arasında inteqrasiyanın güclənməsinə şərait yaradacaqdır. Belə ki:

Naxçıvan iqtisadi rayonunda əkin əmsalları və əkin subsidiyasının məbləği 2025-ci il sentyabrın 1-dən 2026-cı il mayın 31-dək salınan:

**Super-intensiv** meyvə bağları üçün:

- üzüm bağları üçün 14 700 manat;
- fındıq bağları üçün 4 400 manat;
- şaftalı (nektarin) və ərik bağları üçün 24 500 manat;
- armud bağları üçün 25 200 manat;
- alma bağları üçün 32 200 manat;
- qoz bağları üçün 5 600 manat olmuşdur.

**İntensiv** meyvə bağları üçün:

- üzüm bağları üçün 12 500 manat;
- şaftalı (nektarin) və ərik bağları üçün 5 000 manat;
- püstə bağları üçün 6 300 manat;
- armud bağları üçün 20 000 manat;
- alma bağları üçün 21 000 manat;
- xurma (xirnik) bağları üçün 4 500 manat;
- badam bağları üçün 7 350 manat;
- qoz bağları üçün 4 200 manat olmuşdur;
- böyürtkən bağları üçün 10 400 manat;
- fındıq bağları üçün 3000 manat;
- qaragilə (mavigilə) bağları üçün 25 000 manat.

**Naxçıvan Muxtar Respublikasında super-intensiv bağçılıq təşviq ediləcək**

Dəniz səviyyəsindən 700-1100 metr aralığındakı hündürlükdəki ərazilərdə yerləşən bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan, sahəsi ən azı 2 hektar olan və 1 hektara minimum 350 ədəd sertifikatlı tingin əkildiyi super-intensiv **qoz bağlarına** – 5 600 AZN

Dəniz səviyyəsindən 800 metrdən yuxarı olmayan ərazilərdə yerləşən hər hektarından azı 2 nöqtədə (nümunə koordinatlar qeyd edilməklə) 2 qatdan (0-30 sm, 30-60 sm) götürülmüş torpaq nümunələrində elektrik keçiriciliyi göstəricisi 2,0 dS/m-dən az olan bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan, cəmi sahəsi ən azı 3 hektar olan və 1 hektara minimum 2500 ədəd sertifikatlı (calaqaltı və calaqüstü sortunu təsdiq edən) tingin əkildiyi, bağın salındığı 1-ci ildə dirək sistemi (şpaler) qurulmuş super-intensiv **şaftalı (nektarin) bağlarına** 24 500 AZN əkin subsidiyası ödəniləcək.

Dəniz səviyyəsindən 900 metrdən yuxarı olmayan ərazilərdə yerləşən bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə dirək sistemi (şpaler) ilə salınan, sahəsi azı 3 hektar olan və 1 hektara minimum 2 770 ədəd sertifikatlı tingin əkildiyi super-intensiv **armud bağlarına** 25 200 AZN əkin subsidiyası ödəniləcək.

Dəniz səviyyəsindən 800-1100 metr aralığındakı hündürlükdəki ərazilərdə yerləşən bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə dirək sistemi (şpaler) ilə salınan, sahəsi azı 2 hektar olan və 1 hektara minimum 4000 ədəd sertifikatlı tingin əkildiyi super-intensiv **alma bağlarına** 32 200 AZN əkin subsidiyası ödəniləcək.

Dəniz səviyyəsindən 700-1100 metr aralığındakı hündürlükdəki ərazilərdə yerləşən bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan və sahəsi azı 2 hektar olan və 1 hektara minimum 650 ədəd sertifikatlı tingin əkildiyi (ocağın olduğu) super-intensiv **fındıq bağlarına** 4 400 AZN əkin subsidiyası ödəniləcək.

Muxtar respublikada 800 metrdən yuxarı olmayan ərazilərdə bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə dirək sistemi ilə salınan və sahəsi ən azı 5 hektar olan və 1 hektara minimum 1600 ədəd tingin əkildiyi, çəyirdəksiz sortlardan və filloksera zərərvericisinə davamlı calaqaltılar istifadə olunmuş, və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq sığortalanmış super-intensiv **üzüm bağlarına** 14 700 AZN əkin subsidiyası ödəniləcək.

**İntensiv meyvəçiliyə və giləmeyvəçiliyə dəstək artaraq davam edir**

Muxtar respublikada bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan və sahəsi ən azı 1 hektar olan və 1 hektara minimum 330 ədəd sertifikatlı tingin əkildiyi (ocağın olduğu) intensiv **fındıq bağlarına** şamil edilsin, qeyd edilən tələblərə cavab verməyən və 2025-ci il sentyabrın 1-dən 2026-cı il mayın 31-dək salınan intensiv fındıq bağlarına 3 000 AZN əkin subsidiyası ödəniləcək.

Muxtar respublikada 1500 metrdən yuxarı olmayan ərazilərdə bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə dirək sistemi ilə salınan və sahəsi ən azı 2 hektar olan və 1 hektara minimum 1250 ədəd tingin əkildiyi, filloksera zərərvericisinə davamlı calaqaltılar istifadə olunmuş və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq sığortalanmış intensiv **üzüm bağlarına** 12 500 AZN subsidiya ödəniləcək.

Muxtar respublika üzrə 1500 metrdən yuxarı olmayan ərazilərdə yerləşən hər hektarından ən azı 2 nöqtədə (nümunə koordinatlar qeyd edilməklə) 2 qatdan (0-30 sm, 30-60 sm) götürülmüş torpaq nümunələrində elektrik keçiriciliyi göstəricisi 2,0 dS/m-dən az olan bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan və ən azı 3 hektar sahədə salınan və 1 hektara minimum 650 ədəd tingin əkildiyi olan intensiv **şaftalı (nektarin) və ərik** bağlarına 5 000 AZN əkin subsidiyası ödəniləcək.

Muxtar respublika üzrə 1000 metrdən yuxarı olmayan ərazilərdə torpaq analiz nəticələrində torpağın elektrik keçiriciliyi göstəricisi 3,0 dS/m-dən az olmayan torpaqlarda 1 hektara minimum 400 ədəd tingin əkildiyi intensiv **püstə bağlarına** 6 300 AZN əkin subsidiyası ödəniləcək.

Muxtar respublikada dəniz səviyyəsindən 300 metrdən hündür ərazilərdə bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə dirək sistemi ilə salınan, sahəsi ən azı 3 hektar olan və 1 hektara minimum 2450 ədəd sertifikatlı tingin əkildiyi intensiv **armud bağlarına** 20 000 AZN əkin subsidiyası ödəniləcək.

Muxtar respublikada bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə dirək sistemi ilə salınan, sahəsi ən azı 1 hektar olan və 1 hektara minimum 2450 ədəd sertifikatlı tingin əkildiyi intensiv **alma bağlarına** 21 000 AZN əkin subsidiyası ödəniləcək.

Muxtar respublikada bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan, sahəsi ən azı 3 hektar və 1 hektara minimum 650 ədəd sertifikatlı tingin əkildiyi intensiv **xurma (xirnik) bağlarına** 4 500 AZN əkin subsidiyası ödəniləcək.

Naxçıvan iqtisadi rayonu üzrə 1500 metrdən yuxarı olmayan ərazilərdə, bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan, sahəsi ən azı 2 hektar olan və 1 hektara minimum 650 ədəd sertifikatlı tingin əkildiyi intensiv **badam bağlarına** 7 350 AZN əkin subsidiyası ödəniləcək.

Naxçıvan iqtisadi rayonunda bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan, sahəsi ən azı 5 hektar olan və 1 hektara minimum 250 ədəd sertifikatlı tingin əkildiyi intensiv **qoz bağlarına** 4 200 AZN əkin subsidiyası ödəniləcək.

Naxçıvan Muxtar Respublikası üzrə bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan və sahəsi ən azı 1 hektar olan, 1 hektara minimum 3700 tingin əkildiyi dirək sistemi ilə salınan və damcı suvarma sisteminin tətbiq olunduğu **böyürtkən bağlarına** hər hektar üçün 10 400 AZN əkin subsidiyası ödəniləcək.

Naxçıvan iqtisadi rayonunda bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan və sahəsi ən azı 1 hektar olan, 1 hektara minimum 3570 ədəd **dibçəklərdə** torf və perlit qarışığında əkildiyi **qaragilə (mavigilə) bağlarına** hər hektar üçün 25 000 AZN əkin subsidiyası ödəniləcək.

**Qeyd: Müraciət qaydası**

Fermerlər subsidiyalarla bağlı müraciətlərini Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) vasitəsilə elektron qaydada təqdim etməlidirlər. Ətraflı izah və texniki dəstək üçün Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinə müraciət edilə bilər.



# 2025-ci ilin yanvar-avqust ayları ərzində Naxçıvan Muxtar Respublikası büdcəsinin icrası barədə













Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti məlumat verir ki, 2025-ci ilin yanvar-avqust aylarında büdcənin icrası büdcə intizamının gücləndirilməsi, fiskal idarəetmənin səmərəli təşkili və iqtisadi sabitliyin qorunması istiqamətində mühüm nəticələr vermişdir. Belə ki, 2025-ci ilin yanvar-avqust aylarında büdcənin gəlirləri üzrə 136,5 milyon manat həcmində proqnoza qarşı faktiki daxilolmalar 180,9 milyon manat təşkil etmişdir. Bu isə 44,4 milyon manat və ya 32,5 faiz artımla icra olunması deməkdir. Büdcəyə daxil olan vəsaitlərin 165,9 milyon manatı və ya 91,7 faizi vergi daxilolmalarının, 12,1 milyon manatı və ya 6,68 faizi gömrük orqanları tərəfindən təmin edilən vəsaitlərin, 1,6 milyon manatı və ya 0,89 faizi büdcə təşkilatlarının ödənişli xidmətlərinin, 1,3 milyon manatı və ya 0,73 faizi isə digər daxilolmaların payına düşmüşdür. Vergi daxilolmaları istiqamətində, xüsusilə əlavə dəyər vergisi 121 faiz, aksiz vergisi 153 faiz, fiziki şəxslərin gəlir vergisi 115 faiz, hüquqi şəxslərin mənfəət vergisi isə 126 faiz səviyyəsində icra edilmişdir. Digər daxilolmaların proqnozu 1,5 dəfə üstələnməsi büdcə intizamının möhkəmləndirildiyini göstərir.

Azərbaycan Respublikasının dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasına ayrılmış dotasiya üzrə 167,6 milyon manatlıq plana qarşı 120 milyon manat vəsait icra edilmiş, nəticədə, plan göstəricisindən 28,4 faiz azalma qeydə alınmışdır. Bu isə muxtar respublikanın daxili maliyyə imkanlarının genişləndiyini və büdcə təminatında daxili gəlirlərin rolunun artdığını göstərir.

Büdcə xərcləri üzrə 310,9 milyon manatlıq plana qarşı 276,9 milyon manat icra qeydə alınmış, ümumi icra səviyyəsi 89 faiz olmuşdur. Əməyin ödənişi xərcləri 99 faiz və ya 202 milyon manat, sosial ödənişlər 77 faiz və ya 3 milyon manat, subsidiyalar, qrantlar və digər ödənişlər 83 faiz və ya 15 milyon manat, malların (işlərin və xidmətlərin) satınalınması xərcləri 73,0 faiz və ya 30,0 milyon manat, qeyri-maliyyə aktivləri 62,0 faiz və ya 26,0 milyon manat icra edilmişdir. Ayrı-ayrı funksional bölmələr üzrə icra göstəricilərində nəzərəçarpacaq dinamika müşahidə edilmişdir. Belə ki, "Sosial müdafiə və sosial təminat" bölməsi üzrə xərclər tam – 100 faiz icra edilərək 6 milyon manat səviyyəsində qeydə alınmışdır. "Təhsil" bölməsi üzrə 97 faiz icra göstəricisi ilə 99 milyon manat, "Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq" bölməsi üzrə isə 96 faiz icra ilə 54 milyon manat vəsait xərclənmişdir. "Ümumi dövlət xidmətləri" üçün ayrılmış vəsaitlərin 91 faizi, yəni 45 milyon manatı, "Mədəniyyət, incəsənət və digər" bölməsi üzrə isə 91 faizi və ya 16 milyon manat icra olunmuşdur.

Ümumilikdə, 2025-ci ilin yanvar-avqust aylarında büdcənin gəlirlərində artım qeydə alınmış, sosial öhdəliklərin icrası isə tam təmin edilmişdir.

Əlavə məlumat kimi bildirilir ki, ötən 3 il ərzində muxtar respublikada fiskal dayanıqlığın artırılması istiqamətində məqsədyönlü islahatlar aparılmış, dövlət büdcəsindən muxtar respublika büdcəsinin xərclərinin tənzimlənməsi üçün ayrılmış dotasiyanın məbləği əhəmiyyətli dərəcədə azalmış, büdcə xərclərinin yerli yığımlardan maliyyələşməsinin çəkisi 57 faiz səviyyəsinə çatmışdır. Növbəti dövrlərdə də fiskal siyasətin təkmilləşdirilməsi, dövlət maliyyəsi, mühasibat uçotu, dövlət xəzinədarlığı və dövlət maliyyə nəzarəti sahəsində islahatların aparılması, büdcə gəlirlərinin formalaşma mənbələrinin təkmilləşdirilməsi, büdcə xərclərinin optimallaşdırılması, habelə rəqəmsal texnologiyalar və innovasiyalar tətbiq edilməklə səmərəli icra və nəzarət mexanizminin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, ölkə səviyyəsində aparılan islahatların muxtar respublikada da davam etdirilməsi əsas prioritet olaraq qalır.



# 2025-ci ilin yanvar-avqust aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı






2025-ci ilin yanvar-avqust aylarında muxtar respublikada ümumi daxili məhsul istehsalı 1 milyard 64 milyon 589 min 400 manat olmuşdur ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,0 faiz çoxdur. Bu dövr ərzində əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul istehsalı 4,5 faiz artaraq 2257,9 manat olmuşdur.

***

Cari ilin yanvar-avqust aylarında muxtar respublikada 343 milyon 6 min 900 manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2024-cü ilin müvafiq dövründəki göstəricidən 19,1 faiz çoxdur. Sənaye məhsulunun 281 milyon 174 min 400 manatı və ya 82,0 faizi malların, 61 milyon 832 min 500 manatı və ya 18,0 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənaye məhsulunun 0,1 faizi mədənçıxarma, 76,6 faizi emal, 20,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 2,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.






***

2025-ci ilin yanvar-avqust aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 122 milyon 629 min 300 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 42,4 faiz çoxdur.

İstifadə olunmuş vəsaitin 30 milyon 928 min manatı və ya 25,2 faizi məhsul istehsalı sahələrinə, 36 milyon 960 min 300 manatı və ya 30,2 faizi xidmət sahələrinə, 54 milyon 741 min manatı və ya 44,6 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Əsas kapitala vəsait qoyuluşunun 91 milyon 650 min 800 manatı və ya 74,7 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 33,6 faiz çoxdur.

***

Cari ilin yanvar-avqust aylarında muxtar respublikada 264 milyon 10 min 100 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bunun da 149 milyon 179 min 700 manatı bitkiçilik sahəsi üzrə, 114 milyon 830 min 400 manatı isə heyvandarlıq sahəsi üzrə olmuşdur. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 1,5 faiz azalmışdır.

***

2025-ci ilin yanvar-avqust aylarında muxtar respublikada nəqliyyat sektorunda 4 milyon 767 min 500 ton yük, 31 milyon 681 min sərnişin daşınmışdır. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,0 faiz, sərnişin daşınması isə 1,1 faiz artmışdır.

***

Cari ilin yanvar-avqust aylarında informasiya və rabitə xidmətlərinin dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 13,4 faiz artaraq 25 milyon 569 min 600 manat olmuşdur. Xidmətlərin 45,5 faizi mobil telefon rabitəsi sahəsində formalaşmışdır.

***

2025-ci ilin yanvar-avqust aylarında muxtar respublikada pərakəndə ticarət dövriyyəsi 904 milyon 101 min 100 manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,8 faiz çoxdur. Ticarət şəbəkəsində 464 milyon 708 min manatlıq qida məhsulları, içkilər və tütün məmulatları, 439 milyon 393 min 100 manatlıq qeyri-qida məhsulları satılmışdır.

***

Naxçıvan Muxtar Respublikası üzrə əhalinin banklardakı əmanətlərinin məbləği bir il öncəyə nisbətən 54,4 faiz artaraq 2025-ci il avqust ayının 1-nə milli valyuta ekvivalentində 32 milyon 752 min manat təşkil etmişdir. Əmanətlərin 93,2 faizi milli, 6,8 faizi xarici valyutada qoyulmuş, milli valyutada olan əmanətlərin məbləği əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 51,2 faiz, xarici valyutada qoyulmuş əmanətlərin məbləği isə 2,2 dəfə artmışdır.

***

Cari ilin yanvar-avqust aylarında muxtar respublikanın xarici ticarət dövriyyəsi 79 milyon 628 min 160 ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 9 milyon 72 min 880 dollarını və ya 11,4 faizini ixrac olunmuş məhsulların, 70 milyon 555 min 280 dollarını və ya 88,6 faizini isə idxal məhsullarının dəyəri təşkil etmişdir. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi 8,7 faiz, o cümlədən idxal 11,7 faiz azalmış, ixrac isə 24,5 faiz artmışdır.

***

2025-ci ilin yanvar-avqust aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 136 milyon 560 min manat olmuşdur ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,1 faiz çoxdur.

***

2025-ci ilin yanvar-iyul aylarında muxtar respublikada orta aylıq nominal əməkhaqqı 825,9 manat olmuşdur ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,3 faiz çoxdur.

***

1 avqust 2025-ci il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətən 2058 nəfər və ya 0,4 faiz artaraq 471911 nəfər olmuşdur.

# Azərbaycanın təhsil strategiyası:

## beynəlxalq təcrübə, səriştəli müəllim və qabaqcıl texnologiyalar

**Prezident İlham ƏLİYEV:**

*“Azərbaycanda, bütövlükdə, təhsil sahəsi müasirləşir, yeniləşir. Həm təhsilin maddi-texniki bazası möhkəmlənir, həm də tədris prosesi yeniləşir. Bu sahəyə çox böyük diqqət verməliyik. Maddi-texniki bazanın möhkəmləndirilməsi işlərində Azərbaycanın iqtisadi imkanları, ilbəil artan büdcəmiz, investisiya xərclərinin artırılması aparıcı rol oynayır. Əlbəttə, dövlət siyasəti ondan ibarətdir ki, ilk növbədə, təhsil sahəsinə böyük diqqət göstərilir.”*



Ümummilli Liderimiz Heydər Əliyevin ***“Təhsil millətin gələcəyidir”*** ideyası üzərində qurulan Azərbaycanın təhsil strategiyası bu gün ölkənin sosial-iqtisadi inkişafının təmin olunmasında aparıcı mövqeyə və rola malikdir. Prezident İlham Əliyevin ***“Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir”***, ***“Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir”*** fikirləri onun milli təhsil sisteminin inkişafına nə qədər diqqət ayırdığını və respublikamızda dövlət təhsil siyasətinin necə prioritet məsələ olduğunu göstərir. Ölkə başçısının 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunan “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” bu sahədə inkişafın əsas istiqamətini, yol xəritəsini müəyyənləşdirir. Strategiyanın məqsədi ölkədə səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır.

Aydın məsələdir ki, yüksək təhsil səviyyəsinə malik peşəkar kadrlar istənilən ölkənin intellektual potensialının əsasında dayanır. Burada əsas məqsəd təkcə kadrların yetişdirilməsi ilə yekunlaşmır, insan kapitalından düzgün istifadəni də ön plana çıxarmaqdır. Başqa sözlə, müasir dövrdə ölkələrin uğurlu və davamlı iqtisadi yüksəlişi insan kapitalının məqsədyönlü inkişafı hesabına əldə edilir. Bu baxımdan, təsadüfi deyil ki, Vətən müharibəsindən dərhal sonra, daha dəqiq desək, 2021-ci il fevralın 2-də təsdiqlənən 2030-cu ilədək sosial-iqtisadi inkişaf üçün müəyyən edilmiş milli prioritetlərin də hər biri insan kapitalının və sosial rifahın tərəqqisini hədəfləyir. Təbii ki, həyata keçirilən islahatlar, tətbiq olunan yeniliklər, təlim, tədris metodları təhsilin dövlət xərclərində də aparıcı mövqedə dayanmasını şərtləndirir. Azərbaycanda “Təhsil” bölməsi üzrə xərclərin hər il məqsədli artımı 2003 və 2025-ci illər üçün müqayisəli statistik göstəricilərdə də aydın görünür. Belə ki, əgər 2003-cü ilin statistikasına əsasən dövlət büdcəsindən təhsilə ayrılan xərclər, təxminən, 243 milyon manat təşkil edirdisə, 2025-ci il üçün bu sahəyə ayrılan vəsait 4,94 milyard manat olub. Ümumiyyətlə isə icra olunan strategiya və proqramlar çərçivəsində son illərdə dövlət büdcəsindən təhsilə ayrılan xərclərdə əhəmiyyətli artım özünü göstərir.

Son 10 ildə təhsil xərcləri 3 dəfə, son 5 ildə isə, təxminən, 60 faiz artıb. Heydər Əliyev Fondunun dəstəyi ilə 2003-2024-cü illər ərzində 4000-dək məktəb binası tikilib və ya əsaslı təmir edilib, təhsil ocaqları ən müasir tədris avadanlıqları ilə təchiz olunub. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılıb. Ötən il Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə 960 şagird yerlik Şuşa şəhər 1 nömrəli, 132 şagird yerlik Xocalı şəhəri 1 nömrəli, 624 şagird yerlik Xankəndi şəhər 4 nömrəli, 132 şagird yerlik Laçın rayonu Sus kənd məktəbi, 960 şagird yerlik Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbi, 460 şagird yerlik Xocalı rayonu Ballıca kənd məktəbi olmaqla, ümumilikdə, 6 məktəb istifadəyə verilib. Əvvəlki illərdə isə 960 şagird yerlik Füzuli şəhər 1 nömrəli, 510 şagird yerlik Laçın şəhər 2 nömrəli və 176 şagird yerlik Laçın rayonu Zabux kənd, 144 şagird yerlik Ağdərə rayonu Talış kənd və 360 şagird yerlik Zəngilan rayonu Ağalı kənd tam orta məktəbləri fəaliyyətə başlayıb.

Təhsilin inkişafına dair dövlət strategiyası bilavasitə təhsilverənlərin bilik və intellektual səviyyəsinin dövrün tələblərinə uyğunlaşdırılmasını prioritet məqsəd kimi qarşıya qoyur. Digər bir deyişlə şagirdin savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri onun akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Bu baxımdan, ümumi təhsil sahəsində müəllimlərin sertifikasiyası da mühüm məsələlərdəndir və dövlət-təhsil siyasətinin orta məktəb islahatında başlıca prinsiplərindən hesab olunur. Azərbaycan Elm və Təhsil Nazirliyinin yaydığı məlumatlara əsasən 2022-2024-cü illərdə 65 min nəfərə yaxın müəllim sertifikatlaşdırmaya cəlb edilib. Sertifikatlaşdırma prosesindən uğurla keçmiş, ümumilikdə, 55 min nəfər olmaqla, 38 mindən çox müəllimin əməkhaqqına 10, 17 mindən çox müəllimin əməkhaqqına isə 35 faiz əlavə tətbiq olunub. Nəticədə, əməkhaqqına 10 faiz əlavə tətbiq olunmuş müəllimlər üzrə ortaaylıq əməkhaqqı 980 manat, əməkhaqqına 35 faiz əlavə tətbiq olunmuş müəllimlər üzrə isə ortaaylıq əməkhaqqı 1295 manat təşkil edib. Sertifikasiya və ardınca reallaşdırılan stimullaşdırma tədbirləri, təbii ki, təhsilverənlərin bilik və bacarıqlarının təkmilləşdirilməsinə yol açmaqla onlarda məsuliyyət hissini daha artırmağa, təhsildə sağlam rəqabət mühitinin formalaşmasına töhfə verir. Sözsüz, bu sayədə məktəbdə daim öz üzərində işləyən, bilik və bacarıqlarını davamlı artıran təhsilverən modeli yaranır ki, bu da özünü təhsilalanların nailiyyətlərində göstərir.

Dünyada son 30-40 il ərzində gedən elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Məhz bütün bu amilləri əldə rəhbər tutan Azərbaycan təhsil strategiyasının hədəflərindən biri də təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyinin önə çəkilməsidir. Bu sahədə atılan uğurlu addımlardan biri də son illərdə reallaşdırılan STEAM, “Rəqəmsal bacarıqlar” layihələridir ki, bu layihələrdə iştirak şagirdlərdə ən müasir yeniliklərə dair innovativ bacarıqları ortaya çıxarmaqla nəzəri bilikləri praktik vərdişə çevirməkdə, rəqəmsallaşan dünyada peşəkar mütəxəssis kimi yetişmədə müstəsna rol oynayır. 2024-2025-ci tədris ilində STEAM əsaslı tədris 400-dək ümumi təhsil müəssisəsində, ümumilikdə, 264 mindən çox şagirdi əhatə edib, 2026-cı ilin sonuna bu sayın 280 min nəfərə çatdırılması planlaşdırılır. STEAM layihəsinin 2025-2026-cı tədris ilində əlavə olaraq 7 yeni ümumi təhsil müəssisəsində də tətbiqi nəzərdə tutulur. Nəticədə, layihənin ümumi əhatə dairəsi 405 məktəbə çataraq, ümumilikdə, 300 000 şagirdi əhatə etməsi gözlənilir. Eyni zamanda layihənin yeni tədris ilindən ilk dəfə olaraq 3-cü siniflərdə də tətbiqinə başlanılacaq. “Rəqəmsal bacarıqlar” layihəsi isə 2017-2018-ci tədris ilindən tətbiq edilir. Layihə 2023-2024-cü tədris ilində 531 ümumi təhsil müəssisəsində 400 000-dən çox şagirdi əhatə edib. 2024-2025-ci tədris ilindən daha 230 məktəb layihəyə qoşulub. Ümumilikdə isə layihəyə yeni qoşulacaq məktəblərdə şagird sayı 100 000-dən çoxdur. 2024-2025-ci tədris ilində layihə 762 məktəb üzrə 510 min şagirdi əhatə edib. “Rəqəmsal bacarıqlar”ın 2025-2026-cı tədris ilində əlavə 29 ümumi təhsil müəssisəsində tətbiqi planlaşdırılır. Bununla da layihənin, ümumilikdə, 773 məktəb və 530 000 şagirdi əhatə etməsi gözlənilir.

Ölkədə ümumi təhsil pilləsi üzrə aparılan dərin islahatlar hər il ali məktəbə qəbul imtahanında əldə olunan yüksək nailiyyətlərdə özünü göstərir. Vurğulamaq yerinə düşər ki, 2003-2023-cü illərdə ali təhsil müəssisələrinə qəbul sayı 3 dəfə artıb. Həmçinin bu dövrdə 4000-dən çox tələbə xaricdə təhsil hüququ qazanıb. 2024-2025-ci tədris ilində isə bakalavriat səviyyəsinə 59 026, magistratura səviyyəsinə 14 104, doktorantura və dissentanturaya isə 982 nəfər qəbul olunub. Bakalavriat səviyyəsində 13 523 nəfər, magistratura səviyyəsində 3 267 nəfər, (ümumi 16 790 nəfər) texniki, texnoloji və innovasiya yönümlü ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olub. SABAH qruplarına bakalavriat səviyyəsi üzrə 895, magistratura səviyyəsi üzrə 512 tələbə qəbul olub.

### Naxçıvan təhsili: uğurlu inteqrasiya, uğurlu nəticələr

Azərbaycan təhsil strategiyasının uğurlu nəticələri artıq bir neçə ildir ki, Naxçıvan Muxtar Respublikasının timsalında da özünü göstərməkdədir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” mühüm əhəmiyyət daşıyır, Dövlət Proqramı digər sahələrlə yanaşı, təhsili də yeni inkişaf mərhələsinə daşımaqdan ötrü mühüm prioritetlər müəyyənləşdirib. Proqramın “insan kapitalının inkişafı” adlanan 9-cu prioritetində Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələrində təhsilverənlərin peşəkarlıq səviyyəsinin davamlı olaraq yüksəldilməsini təmin edən innovativ texnologiyalara əsaslanan ixtisasartırma təlimlərinin təşkil edilməsi, istedadlı uşaqlar üçün liseylərin və təmayülləşmənin əhatə dairəsinin genişləndirilməsi, təhsil müəssisələrində elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat (STEAM) əsaslı tədrisin tətbiqinin həyata keçirilməsi nəzərdə tutulur.



Dövlət Proqramında qarşıya qoyulan vəzifələrin icrasına uyğun olaraq ümumi təhsil müəssisələrində indiyədək 154 yeni STEAM otağı istifadəyə verilib. Həmçinin Naxçıvanda şagird nailiyyətlərinin mərkəzləşmiş qaydada monitorinqinin həyata keçirilməsi üçün muxtar respublikanın Təhsil Nazirliyi tərəfindən Monitorinq Mərkəzi yaradılıb. Dövlət Proqramı çərçivəsində ümumi təhsil müəssisələrində yeni tədris ilindən icmaəsaslı məktəbəqədər təhsil müəssisələrinin yaradılması üçün işlər başa çatdırılıb.





Azərbaycan təhsil sisteminə uğurlu inteqrasiya Naxçıvan Muxtar Respublikasında bu sahədə idarəetmənin daha da təkmilləşdirilməsinə, müəllimlərin bilik və bacarıqlarının artırılması yönündə təlimlərdə, sertifikatlaşdırma prosesində, mərkəzləşdirilmiş işə qəbul müsabiqələrində iştirakına şərait yaradır. Muxtar respublikada təhsil müəssisələrinin və təhsilin idarəetmə orqanlarının Elm və Təhsil Nazirliyinin mövcud məlumat bazalarına və elektron xidmətlərinə inteqrasiyası 2024-2025-ci tədris ilində də davam etdirilib. İnteqrasiya çərçivəsində Elm və Təhsil Nazirliyinin 37 adda elektron məlumat bazasından 30-na qoşulma prosesi tamamlanıb, növbəti tədris ilindən digər elektron məlumat bazalarına qoşulma prosesinin də yekunlaşdırılması nəzərdə tutulub. 2024-cü ildə ilk dəfə olaraq muxtar respublikada təhsilverənlərin sertifikatlaşdırılması prosesi keçirilib, 366 müəllimdən 153-ü 51 və daha yüksək, 2 müəllim isə maksimum nəticə – 60 bal toplamaqla yüksək nəticə göstərib. Müəllimlərin işə qəbulu mərkəzləşdirilmiş qaydada aparılaraq 174 namizəd məktəblərə və peşə təhsil müəssisələrinə təyin olunub. Nəticədə, 123 namizəd ümumtəhsil məktəblərinə, 10 nəfər isə peşə təhsili müəssisələrinə, həmçinin 41-i müddətli müqavilə əsasında ümumi təhsil və peşə təhsil müəssisələrinə qəbul olunaraq ixtisasları üzrə təyinat alıblar. Bundan başqa, Naxçıvanda ilk dəfə ibtidai sinif müəllimlərinin və riyaziyyat müəllimlərinin forumları təşkil olunub, tədbirlərdə ölkənin müxtəlif bölgələrindən 2500-ə yaxın pedaqoq iştirak edib.



Naxçıvanda həm qəbul olunan sosial-iqtisadi inkişafa dair Dövlət Proqramının icrası, həm də ölkə təhsil sisteminə uğurlu inteqrasiya özünü şagird nailiyyətlərində də göstərir. Belə ki, ötən tədris ilində Naxçıvandan Dövlət İmtahan Mərkəzinin qəbul imtahanlarında 500-700 bal intervalında nəticə göstərən 379 məzun qeydə alınıb. Bu da son 30 ilin ən yüksək göstəricisi hesab edilir. 2024-2025-ci tədris ilində ümumtəhsil məktəblərinin 473 məzunu, IX siniflər üzrə 196-sı, XI sinifləri üzrə isə 277-si fərqlənmə attestatına, 4 məzun isə qızıl və gümüş nişana layiq görülüb.

Son illərin sosial-iqtisadi inkişaf mənzərəsi göstərir ki, Ümummilli Liderimiz Heydər Əliyevin ümumbəşəri ideyaları işığında, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrlə yanaşı, təhsil də böyük uğur yolunda inamla addımlayır. Təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi, təhsilverənlərin bilik və bacarıqlarının davamlı artırılması, müasir, fəal – interaktiv təlim metodlarının tətbiqi təhsil strategiyasının, dövlət təhsil siyasətinin uğurla həyata keçirilməsini təmin edir və təhsilin keyfiyyətinin dayanıqlı yüksəlişini şərtləndirir. Əminliklə demək olar ki, dünyada gedən qlobal proseslərin fonunda həm yeniləşməni, həm də milliliyi özündə ehtiva edən Azərbaycan təhsilinin uğurları ilbəil daha da artaraq rəqabətli insan kapitalı, milli ideyalara sadiq savadlı, bacarıqlı kadr təminatı baxımından ölkəmizin sosial-iqtisadi inkişafına əvəzsiz töhfələr verməkdə davam edəcək.

**Nail ƏSGƏROV**













# Sosial qayğıya ehtiyacı olan 32 şagird tələbə adını qazanıb





Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələrini bitirən 1 şəhid övladı, 24 sağlamlıq imkanları məhdud, 7 valideynlərini itirmiş və valideyn himayəsindən məhrum şagird tələbə adını qazanıb.

Bu münasibətlə 11 sentyabr 2025-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində ali və orta ixtisas təhsil müəssisələrinə qəbul olan xüsusi kateqoriyadan olan uşaqlarla görüş keçirilib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək abituriyentləri təbrik edib. Komitə sədri bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət uşaq-gənclər siyasəti çoxşaxəli inkişaf perspektivlərinə əsaslanır. Gələcəyimiz olan uşaq və gənclər hər zaman dövlətin qayğısı ilə əhatə olunublar. Onların hüquq və sağlamlıqlarının qorunması, bilik və bacarıqlarının artırılması, milli dəyərlərə bağlılıq ruhunda tərbiyə olunması daim dövlətin diqqətində saxlanılır və bu istiqamətdə davamlı, məqsədyönlü sosial tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın uşaq və gənclərlə bağlı fəaliyyəti isə bu istiqamətdə xüsusi əhəmiyyət daşıyır. Onun təşəbbüsləri uşaqların hərtərəfli inkişafına, gənclərin elm, mədəniyyət və idman sahələrində nailiyyətlərinin artırılmasına geniş imkanlar açır. Mehriban Əliyevanın həyata keçirdiyi humanitar layihələr isə uşaqların sosial müdafiəsinin güclənməsinə və onların cəmiyyətə inteqrasiyasına mühüm töhfə verir. Uğurlu dövlət siyasətinin nəticəsində sağlamlıq imkanları məhdud uşaqlar cəmiyyətə fəal şəkildə inteqrasiya olunur və tələbə olmaq şərəfinə nail olurlar.

Eyni zamanda valideyn himayəsindən məhrum və ya valideynlərini itirmiş uşaqların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ardıcıl işlər aparılır, onların müdafiəsini təmin edən qanunvericilik bazası müasir tələblərə uyğunlaşdırılır. R.Seyidova vurğulayıb ki, komitə tərəfindən uşaqların hüquqlarının qorunması istiqamətində mütəmadi monitorinqlər aparılmaq yanaşı, onların maarifləndirilməsi, sosial rifahının yaxşılaşdırılması və inkişafına dəstək göstərilməsi məqsədilə müxtəlif tədbirlər də təşkil olunur.

Komitə sədri vurğulayıb ki, Naxçıvan Muxtar Respublikasında 85 valideyn himayəsindən məhrum uşaq və 2079 sağlamlıq imkanları məhdud uşaq vardır. Bu il ali və orta ixtisas təhsil müəssisələrinə xüsusi kateqoriyadan 1 şəhid övladı, 6 qız və 1 oğlan olmaqla, 7 valideyn himayəsindən məhrum uşaq (keçən il 5 nəfər), həmçinin 9 qız və 15 oğlan olmaqla, 24 sağlamlıq imkanları məhdud uşaq (keçən il 16 nəfər) qəbul olunub. Ümumilikdə, 32 nəfərdən 7 nəfər orta ixtisas, 25 nəfər isə ali təhsil müəssisəsinə daxil olub.

Çıxışının sonunda R. Seyidova uşaqları, valideynlərini və onların himayədarlarını bir daha təbrik edib, onların dövlətimiz üçün savadlı kadrlar olacaqlarına əminliyini bildirib.

Naxçıvan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova tələbələri səmimi-qəlbdən təbrik edib, onlara uğurlar arzulayıb.

Keçirilən tədbirdə himayədar Əliyeva Nahidə İsgəndər qızı və tələbə adını qazanan Abdinova Səriyə Hafiz qızı, Nağıyev Turan Orxan oğlu dövlətimiz tərəfindən uşaqlara göstərilən diqqət və qayğıya görə təşəkkür ediblər, əlavə olaraq tələbələr gələcəkdə dövlətimiz üçün layiqli kadrlar olacaqlarına söz veriblər.

Sonda abituriyentlərə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hədiyyələr təqdim edilib və xatirə şəkli çəkdirilib.

# Naxçıvan Muxtar Respublika Stadionu müasir standartlara uyğunlaşdırılacaq

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planında regionun idman infrastrukturunun yenilənməsini əhatə edən mühüm məsələlərdən biri də Naxçıvan şəhərindəki mövcud stadionda, yəni Naxçıvan Muxtar Respublika Stadionunda əsaslı təmir və yenidənqurma işlərinin icrası ilə bağlıdır. İlkin mərhələdə stadionun əsaslı təmirinin və bəzi sahələrində yenidənqurma işlərinin layihə-smeta sənədlərinin hazırlanması ilə bağlı tədbirlər görülüb, sentyabrın 8-də "Global Engineering Management Company" şirkəti ilə müqavilə imzalanıb və layihələndirmə işləri həmin şirkətə həvalə olunub. Prosesin gedişatına uyğun olaraq növbəti ildə inşaat işlərinin başlanılması nəzərdə tutulub.

Stadion beynəlxalq standartlara uyğun süni ot örtüyü ilə təchiz olunacaq. Tribunalar yenilənəcək, oturacaqlar dəyişdiriləcək, tamaşaçılar üçün baxış bucağı maksimum dərəcədə optimallaşdırılacaq. Arenanın giriş-çıxış zonaları artırılacaq, təhlükəsizlik sistemləri yenidən qurulacaq. VAR sisteminin tətbiqi üçün şərait yaradılacaq. Bundan başqa, su, kanalizasiya, istilik, elektrik və havalandırma sistemləri tamamilə yenilənəcək. Komandalar üçün soyunub-geyinmə otaqları, hakim, mətbuat və dopinq nəzarət otaqları müasir standartlara uyğun qurulacaq. Eyni zamanda stadion ətrafı abadlaşdırılacaq, yeni parkinq sahələri yaradılacaq və əlilliyi olan şəxslər üçün uyğun mühit təmin ediləcək.

Dövlətimiz tərəfindən stadionun müasir tələblər səviyyəsində qurulması üçün atılan addımlar ölkəmizdə futbolun, ümumilikdə, bədən tərbiyəsi və idmanın inkişafına, o cümlədən regionun idman mühitinə mühüm töhfədir. Görülən işlər, eyni zamanda "Araz-Naxçıvan" PFK-nın ev oyunlarını doğma meydanda, çoxsaylı azarkeşləri önündə keçirməsinə əsaslı zəmin yaradır.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planına əsasən muxtar respublikanın şəhər və qəsəbələrində açıq havada sadə idman qurğularının quraşdırılmasına başlanılıb. Prosesə Şahbuz şəhərində start verilib.

Öncədən müəyyənləşdirilmiş ərazidə ilkin inşaat işləri həyata keçirilir. Plana əsasən cari ilin sonunadək 7-si şəhərdə, 4-ü qəsəbələrdə olmaqla muxtar respublikanın bölgələri üzrə, ümumilikdə, 11 yerdə açıq havada sadə idman qurğularının istifadəyə verilməsi nəzərdə tutulub.

# İki yeni elmi nəşrin təqdimatı keçirilib



AMEA Naxçıvan Bölməsində iki yeni elmi nəşrin – AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyevin "Qədim uyğur türkləri: abidələr, dil, ədəbiyyat" və İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, dosent Nuray Əliyevanın "Naxçıvan şivələri" adlı kitablarının təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq elmi fəaliyyətin, xüsusilə də dil və ədəbiyyat sahəsində aparılan tədqiqatların əhəmiyyətindən danışıb.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, dosent Nuray Əliyeva "Türkologiya elminə yeni töhfə" mövzusunda məruzə edərək Türk dünyasının vahid platformada birləşməsi, türkologiyanın yeni inkişaf mərhələsinə qədəm qoyması kimi məsələlərə toxunub.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin əməkdaşı Ülviyyə Aslanova "Qədim uyğur türkləri: abidələr, dil, ədəbiyyat" adlı dərs vəsaiti barədə çıxış edərək kitabın uyğur türklərinin tarixi, dili, hüquq sisteminin öyrənilməsindəki əhəmiyyətini xüsusilə vurğulayıb.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Rzayev "Naxçıvan şivələrinin öyrənilməsində yeni səhifə" mövzusunda məruzə edib. O bildirib ki, Nuray Əliyevanın "Naxçıvan şivələri" adlı kitabı bölgənin yerli danışıq xüsusiyyətlərinin fonetik, leksik və qrammatik aspektlərini əhatə edir.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov tədbirdə çıxış edərək kitabda toplanan əsərlərin yalnız dilçilik və ədəbiyyat deyil, eyni zamanda ümumtürk mədəniyyətinin öyrənilməsində mühüm rol oynadığını diqqətə çatdırıb.

Sonda müəlliflər – AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyev və İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, dosent Nuray Əliyeva tədbirin təşkilinə və yaradıcılıqlarına göstərilən diqqətə görə minnətdarlıq ediblər.

# Xalq yazıçısı Kamal Abdulla ilə görüş



Naxçıvan Dövlət Universitetində Azərbaycan Dillər Universitetinin rektoru, görkəmli alim, yazıçı-dramaturq, akademik Kamal Abdulla ilə görüş olub. Görüşdə müəllif yeni çap olunan "Gizli Dədə Qorqud" kitabını ilk dəfə təqdim edib.

Rektor Elbrus İsayev qeyd edib ki, Kamal Abdulla Azərbaycanın görkəmli alimi, tanınmış yazıçısı, nüfuzlu ictimai xadimidir. Akademik ilə görüşün onun zəngin elmi, dilçi alim kimi geniş fəaliyyəti ilə daha yaxından tanış olmaq baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan rektor yeni çap olunan "Gizli Dədə Qorqud" kitabının ilk dəfə məhz Naxçıvan Dövlət Universitetinə təqdim olunmasını xüsusi etimad adlandırıb.

Müasir Azərbaycan ədəbiyyatının ən çox oxunan, tanınan və sevilən müəlliflərindən biri olan Kamal Abdulla elmi və ədəbi fəaliyyətinin əsas istiqamətlərindən söz açıb, müxtəlif janrlarda qələmə aldığı bədii əsərlər, onların yazılma səbəbləri haqqında məlumat verib. "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı araşdırmaları, mifologiyanın bugünkü həyatımıza təsiri barədə fikirlərini bölüşüb. Yazıçı yeni nəşr olunan "Gizli Dədə Qorqud" kitabını ilk dəfə təqdim edib və universitetin Elmi Kitabxanasına bağışlayıb.

Sonda görüş müzakirələrlə davam edib.

# Naxçıvan Muxtar Respublikasının iqtisadi və investisiya potensialı CIFIT 2025 sərgisində təqdim olunur




Sentyabrın 8-11-də Çinin Siamen şəhərində keçirilən 25-ci Çin Beynəlxalq İnvestisiya və Ticarət Sərgisi – CIFIT 2025 çərçivəsində ölkəmiz "Invest in Azerbaijan" vahid ölkə stendi ilə təmsil olunur. Sərgidə ölkəmizdən Baş nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşəbbüsü, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanın Çindəki ticarət nümayəndəsi Aparatı və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun təşkilatçılığı ilə sərgidə, həmçinin Naxçıvan Muxtar Respublikasının iqtisadi və investisiya potensialı, əlverişli biznes mühiti barədə məlumatlar nümayiş olunur.

Muxtar respublikanın ilk dəfə təmsil olunduğu sərgidəki stenddə Naxçıvanda yerli xammal hesabına yaradılması səmərəli hesab olunan sahələr, eləcə də "yaşıl enerji", turizm, nəqliyyat-logistika, sənaye və kənd təsərrüfatı imkanları barədə məlumatlar təqdim olunur.

CIFIT 2025 sərgisi 50-dən çox ölkənin stendlərini əhatə edir və 110-dan çox ölkə və regiondan nümayəndə heyətlərini bir araya gətirir. Beynəlxalq tədbir Naxçıvanın xarici investorlarla birbaşa əlaqələrinin genişlənməsi və yeni əməkdaşlıq imkanlarının formalaşması baxımından əhəmiyyətli platformadır.

# Ümumi təhsil müəssisələrində yeni STEAM otaqlarının yaradılmasına başlanılıb




"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın müvafiq bəndinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən muxtar respublikanın ümumi təhsil müəssisələrində yeni STEAM otaqlarının yaradılmasına başlanılıb.

Qeyd edək ki, Dövlət Proqramında 154 təhsil müəssisəsində mövcud olan STEAM otaqlarının avadanlıqlarla zənginləşdirilməsi və əlavə olaraq müəssisələrdə 50 yeni STEAM otağının yaradılması nəzərdə tutulub.

Cari tədris ilində Təhsil Nazirliyi tərəfindən STEAM otaqlarının zənginləşdirilməsi üçün arduino, arduino superkid, flament, 3D qələmlər, arduino nano, məsafə sensorları, optik sensorlar, günəş paneli, servo mator və digər avadanlıqlar tender yolu ilə alınaraq müəssisələrə təhvil verilib. Proqramda nəzərdə tutulan 154 təhsil müəssisəsindəki STEAM otaqları zənginləşdirilib.

Yeni tədris ili öncəsi isə Dövlət Proqramına uyğun olaraq nazirlik tərəfindən ümumi təhsil müəssisələrində 50 yeni STEAM otağının yaradılmasına başlanılıb.

## Mənim yaddaşımda Vətən müharibəsi

# Qələbə ətrinə qovuşdu torpaq

**_Vətən müharibəsi, cəmi 44 gün yaddaşlara elə bir iz saldı ki, yüz illər keçsə də, unudulan deyil. Sərin bir payız səhəri Vətənin bağrına qarayara kimi sancılan Ohanyan xətti igid oğulların gücü, qəhrəmanlığı ilə yarıldı. Və biz illərdir, həsrəti ilə yandığımız Qarabağa qovuşduq. Həmin şanlı gündən artıq 5 il keçir. Biz xalq olaraq beş ildir ki, qalib olmanın şərəfini yaşayırıq. Budəfəki müsahiblərim həmin gündən, şərəfli tarixdən və bu qələbəyə necə qovuşduğumuzdan söhbət açacaq._**

Bu şərəfli tarixi yazanlardan biridir qədim Kəngərlinin özündən də qədim olan Qarabağlar kəndində dünyaya gələn Zeynalov Təbriz Eyvaz oğlu. Hərb peşəsini seçən hər bir oğul kimi onun da ən böyük arzusu Vətənin bütövlüyü idi. Ağcabədi rayonundan başlayan yol Beyləqandan, Talış yüksəkliyindən Naxçıvandan, Günnütdən keçib Vətən savaşında Şuşa yolunda şərəflə tamamlandı. Təbriz həmin günləri belə xatırlayır:

"Azərbaycan Ordusunun hər bir fərdi kimi mən də Vətənin bütövlüyünü arzu edirdim. Bu yolda canımdan belə keçməyə hazır idim. Mən bu yolu əynimə hərbi forma geyinməyə qərar verən gündən seçmişdim. Axı bizim uşaqlığımız da düşmənin Naxçıvana amansız hücum etdiyi günlərə təsadüf etmişdi. Ananın düşmən mərmisinə tuş gələn sədərəkli körpələrə, igid Vətən oğullarına çıraq işığında bayatı deyib göz-yaşı tökdüyü gecələri çox görmüşdüm. Biz düşmənə nifrət hissi ilə böyümüş, Vətən torpağını canımızdan əziz bilmişdik. Vətən keşikçisi kimi şərəfli adı qazandığım gündən hər an hazır idim düşmənin üzərinə atılmağa. Bu arzuma Aprel döyüşlərində, 2018-ci ildə Günnütdə çatdım. Günnüt zəfərini qazananlardan biri olmaq şərəfinə layiq olub oradan Qarabağımızın başıqarlı dağlarını görəndə bir gün bu dağlara da yolum düşsün deyə arzu etdim. Vətən savaşı başlayan gün Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hər bir zabiti kimi Qarabağa getməyə can atdım. Xüsusi təyinatlı bölmə komandiri olaraq döyüşə yollandığım gün Naxçıvandan qalxan təyyarədə olan hər kəs gülürdü. Hamı sevinc içində yola düşürdü Qarabağa, qələbə qazanmağa. Kimin şəhid, kimin qazi olacağını bilmədən halallıq aldıq bir-birimizdən.



Döyüşə girəndə şir kimi irəli atıldı Azərbaycan əsgəri. Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut bir-bir azad edildikcə döyüş ruhumuz daha da artır, Şuşaya doğru irəliləyirdik. Elə gün olurdu ki, şəhid olan silahdaşlarımızı çiynimizdə daşıyır, yaralı-yaralı döyüşürdük, amma bir an belə geri addım atmırdıq. Şuşaya gedən yolda Tuğ kəndindəki döyüşlərdə, düşmənlə üz-üzə dayandığımız günlərin birində mən gözümün nurunu və bir neçə silahdaşımı itirdim. Onlar şəhadət şərbəti içib Vətən üçün əbədiyyət göyərçininə döndü. Onları hər gün qürur və rəhmətlə anır, ruhunuz şad olsun, Hadrud, Zəngilan sizin nəfəsinizlə həyata qayıtdı, Şuşa gözümüzün nuru oldu deyirəm.

Bu gün "Azərbaycan Bayrağı" ordenini, "Şuşanın azad olunmasına görə", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medallarını qürurla daşıyıram. Torpaqlarımızın azad olunması üçün çəkilən yolda mənim də ayaq izim var. Biz çox xoşbəxt nəsilik, çünki müstəqil Azərbaycanda yaşayır və torpaqlarımızın düşmən işğalından azad olunmasının sevincini yaşayırıq. Neçə-neçə insan bu arzuyla, bu həsrətlə dünyasını dəyişib. Bəlkə də, onlar ömürlərinin də fəda edərdilər ki, bir an olsun torpaqlarımızın işğaldan azad edildiyi xəbərini eşitsinlər. Hər birimizin otuz ilə yaxın bir zaman kəsiyində hər gün, hər yeni il gələndə, hər bayramda bir arzumuz, niyyətimiz var idi – gələn bayramı, Yeni ili Şuşamızda, Laçınımızda qeyd edək. Budur, həmin arzuların çin olduğu günləri yaşayırıq. 44 gündə 30 ildə dünya dövlətlərinin görə bilmədiyi bir işi bacardıq. Biz bir olduq, birlikdə gücləndik, qayıtdıq elimizə, obamıza. Azərbaycanlıların gücünü, qüdrətini bütün dünyaya göstərdik. Bundan daha böyük xoşbəxtlik olarmı? Bundan daha böyük qürur, fəxarət varmı?"



Digər müsahibim AJB və AYB üzvü Ünbülbəni (Banu) Musayevadır. O, Şərur rayonunun zəhmətkeş, ziyalı, vətənpərvər qadını, qələmi də Vətən sevdalı bir yazardır. Onunla həmsöhbət olur, ötən günlərdən Vətən savaşına uzanan yola və qələbəyə baxırıq:

"Bir ana, ziyalı qadın kimi müharibəyə nifrət edirəm, terrora yox deyirəm. Amma söhbət Vətən, torpaq, bayraqdırsa, bu yaşda da uf demədən canımı Vətənə qurban verərdim. Sədərək döyüşlərinin canlı şahidiyəm. O vaxt mühasirədə olan və mühasirədə döyüşən Naxçıvan torpağı, Naxçıvan oğulları nə çəkdi onu da bilirəm. Həmin illərdə başımıza yağan bombaların həlak etdiyi insanların dərdinə ağlamağa macal tapmamış düşmən qanlı caynağını evimizə, elimizə uzadır, Sədərək döyüşlərində hər gün ürəyi Vətən sevdalı onlarla oğlu şəhid verirdik. Qışın sərt soyuğunda, istidən Xan Arazın belə dodağının çatladığı yay günlərində səngərdə ac-susuz dayanan oğullar topa, tanka qarşı ov gülləsi ilə döyüşür torpağın bir qarışını düşmənə vermirdi. Biz qadınlar isə güclə tapdığımız bir ovuc undan səngərdəki əsgərə çörək bişirib göndərirdik. Kimin nəyə gücü çatır Vətənin müdafiəsinə dəstək olurdu. Həmin çətin günlərdə, elimizin ən dar günündə imdadımıza yetən Vətən oğlu Heydər Əliyevin ətrafında sıx birləşən naxçıvanlılar bu torpağı qorudu. Amma çox təəssüf ki, mərkəzi hakimiyyətin bacarıqsızlığı ucbatından Qarabağ əsir düşdü. Yüzlərlə can getdi, hədər oldu. 30 il narahat ruhlar dolaşdı Vətənin dumanlı səmasında. Xalqın gücü Heydər Əliyevin zəkası ilə birləşib bizə nicat yolunu göstərdi. Dahi rəhbərin davamçısı İlham Əliyev Ulu Öndərin vaxtilə Naxçıvanda əsasını qoyduğu ordunu gücləndirdi. Aprel döyüşləri, Günnüt qələbəsi ordumuzun zəfər yolundakı mayakı oldu. 12 iyul Tovuz döyüşləri bizim qələbəmizin təməlini atdı. İstər-istəməz hamının üreyindən bir arzu, bir istək keçdi. "Ayağa qalx Azərbaycan!", "Qarabağ Azərbaycandır! Nida!".

Ünbülbəni Musayeva deyir: "Həmin günlərdə xalqına ar-xalanan sərkərdə suverenliyimizin, ərazi bütövlüyümüzün, dövlətçiliyimizin bütövlüyü uğrunda mübarizəyə və müharibəyə qalxdı. Dövlət və xalq birliyi bir yumruq kimi birləşib "dəmir yumruq" əməliyyatına başladı. Necə deyərlər, Vətən və torpaq bizim amalımız, yaşam səbəbimiz, yaşam amalımız oldu.

Azərbaycan dövlətinin Ali Baş Komandanı İlham Əliyev 27 sentyabr 2020-ci ildə xalqımıza müraciət etdi. Həmin müraciəti eşidəndə həm ağladım, həm də Allaha yalvardım. Allahım, sənə yalvarıram, övladlarımızı, əsgərlərimizi, ordumuzu qoru! Düşmən qabağında dövlətimizi, Ali Baş Komandanımızı, Milli Ordumuzu qoru! Həmin gün bütün Azərbaycan xalqı belə dua edir, ordumuza zəfər arzulayırdı. Bu son 30 ildə Azərbaycan TV kanallarına 44 gündə baxdığımız qədər, bəlkə də, baxmamışdıq. Mavi ekranda ilk dəfə eşitdiyim "Gözün aydın Azərbaycan, Füzulinin iki kəndi işğaldan azad olundu" xəbərinə hönkürtü ilə ağladım və özümdən asılı olmayaraq, ayağa qalxıb xəbəri alqışladım, təkcə bizim evimizdən yox, bütün evlərdən "Ura! Yaşasın Ordumuz!", "Yaşasın Ali Baş Komandanımız!" şüarı dalğa-dalğa yayılıb bir payız səhərini yaza döndərdi. Həmin gün Ohanyan xətti yarılanda balaları şəhid olan analar onların nəşinə sarılıb Ali Baş Komandana "Müharibəni dayandırma", – dedi. Dünya yaranandan bəri hələ belə Vətən sevgisi görməmişdi".

Söhbət zamanı keçmişə qayıdan, həmin günləri gözyaşı ilə xatırlayan ziyalı xanım deyir:

"Mən düşmənlərimizin Şuşanı işğal etməsini Ermənistan TV kanallarından izləmişəm. Ermənilər bayram edirdi. O gün diz üstə çöküb o böyük Yaradana ağlaya-ağlaya yalvardım ki, Şuşanın zəfərini görməyi mənə, xalqımıza nəsib etsin. Uca Tanrı Ali Baş Komandanımıza və bütün Milli Ordumuza daim kömək olsun. Şuşa zəfərini – tarixi qələbəmizi görməyi bizə nəsib etdi. Milli mənliyimiz özümüzə qayıtdı, milli qürurumuz bizi – ordumuzu dünyaya tanıtdı. Prezidentimiz dünya siyasi tribunalarında dediyi sözü, xalqa verdiyi vədi ləyaqətlə yerinə yetirdi.

Torpağın müqəddəsliyi şəhid qanından yoğrulan sevgidir. Ona görə də ana torpağı özümüzdən, hətta övladımızdan da çox sevirik, hər şeyə rəğmən "Vətən sağ olsun!" – deyirik. Çünki Vətən, torpaq canımızdan şirindir, – deyən Ünbülbəni xanım bunu da diqqətimizə çatdırır:

"Azərbaycan Zəfər tarixində şəhidlərimiz təkcə bir döyüşçü yox, milli qürurumuzun, milli mənəviyyatımızın xalq və dövlət birliyinin, Vətən və torpaq sevgisinin canlı təcəssümüdür, qanla yazılmış tarixidir.

Hər bir şəhidimizin həyatı, döyüş yolu, döyüş şücaəti, qəhrəmanlığı və XXI əsr Azərbaycanın hərb tarixində cahanşümül qəhrəmanlığıdır. Sülhün və barışın, dinc yolla münaqişələrin həllinə çalışan Azərbaycan müharibə yolu ilə, Şuşa zəfəri ilə Şuşada keçirilən hərbi paradda, Xankəndidə keçirdiyi hərbi paradda öz sözünü dedi. Şuşa qələbəsi günü duyğusal bir gecə yaşadım. Çox qürurlu idi... Çox... Dünya hərbi ekspertlərinin Şuşa döyüşü haqqındakı müsbət rəyləri insanın sinəsini qabardır. Sizə biz analar qurban, Azərbaycan əsgəri!" – deyirik.





Qədim Naxçıvanın qeyrət qalası Sədərəkdə hamı Hümbət Rzayevi vətənsevər bir insan kimi tanıyır. Sədərəyin müdafiəsi zamanı o bunu sübut edib. Vətən müharibəsindən sonra isə onu bütün Azərbaycan tanıdı. Qəhrəman oğlu, Vətən müharibəsi şəhidi Ərtoğrulun 52 gün sonra gələn tabutunun önündə qurban kəsəndə. O, 52 gün yol gözləyib, hər gün əllərini Uca Tanrıya açıb: "Təki balam gəlsin, quzu qurban kəsəcəyəm", – deyib. Qazanılan qələbədən keçən beş ildə tez-tez görürəm Hümbət atanı. Hər dəfə qarşılaşanda da Ərtoğruldan danışır. "Az qala dadını unutduğumuz qələbəni gətirdi bizə balalarımız. Onlar illərdir, əsir olan torpaqlarımızın dərdinə dərman oldular", – deyir.

Hümbət ata Sədərək döyüşlərini yada salır və deyir: "Həmin günlərdə xalqın əzmi və Ulu Öndərin burada olmağı Naxçıvanı qorudu. Balaca bir kənd həmin günlərdə sanki insanların iradəsi ilə Vətən sevgisindən qurulan sədd olmuşdu. Düşmən bizdən qat-qat artıq idi, amma bizim Vətən sevgimiz silahları belə susdururdu. Həmin günlərdə burada doğulan oğullar güllə səsi altında böyüyüb Qarabağı azad etmək yolunda irəlilədi. Və Heydər Əliyevin arzusu çin oldu. Azərbaycan bütövləşdi. Oğlum Ərtoğrul hərbçi olmaq istəyəndə onu şəhidlik zirvəsində gördüm sanki. Çünki bilirdim ki, torpağının 20 faizi işğalda olan dövlətin zabiti olmaq həm də şəhid, qazi olmağa hazır olmaq deməkdir. 27 sentyabr günü Ali Baş Komandanın xalqa müraciətini dinləyib, bir neçə yüksəkliyin azad olunduğunu öyrəndikdən sonra həyata çıxdım. Sədərəyin hər daşına şəhid qanı hopan dağlarına baxıb biz Qarabağa da dönəcəyik dedim. Mən buna əmin idim, çünki illərdir, dövlət başçısının necə cəsarətlə ***"Qarabağ Azərbaycandır!"*** – dediyinə şahid olurdum. Vətən savaşında torpaqlarımız qarış-qarış azad edildikcə bizim də sevincimiz hədsiz olurdu".

Şəhid atası deyir: "Mən həm də ona görə sevinirdim ki, azad olunan torpaqlara oğlumun da ayaq izləri düşürdü. Bu gün şəhid atası adını qürurla daşıyıram. Vətənimiz uğrunda canından keçən igidlər bizim canımızdan bir parçadır. Onların hər biri bütöv Azərbaycanın övladıdır. Şəhid ailəsi olmaq böyük şərəfdir. Bizim yurdumuzun şəhidləri heç bir zaman ölməyəcək. Onlara böyük ehtiram göstərilir, ruhları önündə daim baş əyilir, ailələri uca tutulur. Vətən müharibəsindəki qələbədən beş il ötür. Mən əminəm ki, şəhidlərin Murovdağ yüksəkliyində, Şuşanın, Xankəndinin, Xocalının azad səmasında pərvaz edən ruhları şaddır. Çünki bu Vətən bütövdür, Azərbaycan Bayrağı Vətənin hər yerində yüksəklərdə dalğalanır".

*Bir neçə gün sonra həmin gün yenə gələcək – 27 sentyabr. Beş il ötəcək həmin gündən. Qürurla, şəhidlərimizə, onları böyüdüb Vətənə qurban verən ana, atalara minnətdarlıq hissi ilə, qazilərimizə, müharibənin od-alovunu söndürüb hələ də xidmətini Vətən müharibəsi iştirakçısı kimi davam etdirən hərbçilərimizə hörmətlə keçən beş il. Və qələbə qazanmış xalq olmaq sevinci ilə yaşadığımız beş il.*

**Ramiyə ƏKBƏROVA**

# İndi onun xatirələri ilə yaşayıram

Şərur Şəhidlər xiyabanında tez-tez görürəm iki övladı ilə şəhid həyat yoldaşının məzarını ziyarət edən Çinarə xanımı. Rayonun Oğuzkənd sakini, Vətən müharibəsi şəhidi Mərhəmətin vəfalı həyat yoldaşı. Söhbətləşərik hərdən bu gənc xanımla. Danışar həyatından, həyat yoldaşından.

2019-cu ilin aprel ayından Əlahiddə Ümumqoşun Orduda xüsusi təyinatlı qüvvələrin tərkibində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət etməyə başlayıb. Vətən müharibəsi başlayanda "Müharibə başlayıb bizlər də gedəcəyik", – deyirdi: "Onu sonuncu dəfə oktyabrın 8-də yola saldım işə, növbətçi idi həmin gecə. Evdən çıxanda ürəyim sanki mənə dedi ki, bu onunla son görüşündü. İstədim, arxasından səslənəm, dayandım bir anlıq. Dedim, işə tələsir, narahat etməyim. İki gün sonra oktyabrın 10-da Naxçıvandan bir qrup hərbçi Qarabağa yola düşdü. Mərhəmət də onların içində idi. Xalaoğlum Nihat evlərinə zəng vurub xəbər edəndən sonra mən bildim ki, o



gedib döyüşə. Zəng vurub özündən soruşanda məni sakitləşdirdi və dedi ki, təlimə gedir. Amma sonra bildim ki, həmin gün anamgilə zəng vurub: "Çinarə və uşaqlardan muğayat olun, mən döyüşə gedirəm", – deyib.

Sonradan məcbur qalıb döyüşdə olduğunu dedi mənə. Tez-tez olmasa da, imkan tapan kimi evə zəng vururdu. Sonuncu dəfə oktyabr ayının 23-də onunla danışdım. Daha zəng gəlmədi. Sonradan öyrəndim ki, yaralanıb, 13 saat atəş altında qalıb, xilas etmək mümkün olmayıb. Xocavənd rayonunun Tuğ kəndi istiqamətində şəhid olub. Mən onun şəhid olduğu xəbərini ayın 27-də öyrəndim".

"30 oktyabr 2020-ci il həyatımın ən ağır günüdür", – deyir şəhid xanımı: "O gün Mərhəmətin nəşi ilə bərabər bütün xəyallarımı, sevincimi də dəfn etdim torpağa. Beş ildir, iki balamı, bir də onun xatirəsini yaşatmaq üçün nəfəs alıram. Övladlarına, bizə qarşı o qədər yaxşı idi, bizlərin heç bir zaman xətrinə dəyməzdi, deyib-gülən, şən insan idi. O qədər gözəl ata, mehriban həyat yoldaşı idi ki, vaxt tapan kimi uşaqlarını gəzməyə aparar, onlara istədiklərini alardı. Heç korluq verməzdi bizə. O mənim 7 il həsrətdən sonra qovuşduğum yarım idi. Altıillik evlilik həyatımızda bir dəfə belə güldən ağır söz deməmdi mənə. Hər çətinliyə birlikdə sinə gərdik. Xoşbəxt idik. Qismət bizi çox tez ayırdı. İndi mən onun xatirələri ilə yaşayıram".




# Şuşa – qəhrəmanlığın, vətənsevərliyin ən uca zirvəsi

Qarabağ Zəfərindən sonra hər bir vətənsevər kimi mənim də qəlbimdə doğulmuş günəş öz şüaları ilə ürəyimi isidirdi. Gecə qaranlığa qərq olub, ayulduzlarla ətrafa hakim olarkən belə qəlbimdəki o günəş heç batmırdı. Mənim üçün günəşin hər bir şəfəqi şəhidlərin son nəfəsinin izidir. Elə buna görə də o heç kəsi yandırmadan hər qəlbə süzülür, sanki məlhəm kimi ruhu ovundurur.

Vətən müharibəsinin zəfər simvolu olan Şuşa şəhərinə getmək istəyim, oranı görmək həyəcanım bir an belə olsun bitmirdi qəlbimdə. Lakin hər dəfə bu istək baş qaldırdıqca özümə təskinlik verir və deyirdim: "İndi yox, indi yox". Getmək üçün ürəyim uçunurdu. Mənim üçün şəhid demək torpaq deməkdir. Ona görə də düşünürdüm ki, onların qoxusu torpağın hər qarışında gizlidir.

Nəhayət, qərar verdim ki, qürurla Şuşaya yol alım. Gecə çıxacağım tura gecikməyim deyə bir neçə saat əvvəldən avtovağzala yetişib gözləməyi qərara almışdım. İçimdə elə böyük bir həyəcan və təlaş vardı ki, bu yaşıma qədər heç zaman bu cür hiss etməmişdim. Yolboyu ya gözlərim dolur, ya da hıçqırıqla ağlayırdım. Düşünürəm ki, hər ölkənin bir qibləsi olsa idi, bizim qibləmiz mütləq Şuşa olardı. Mən də bu yola öz qibləm üçün, Şuşa üçün çıxmışdım.

Yolumuz vaxtilə dağıdılmış, viran qalmış Ağdamdan, qırmızı hərflərlə yazılmış Xocalıdan, həsrətində olduğumuz Xankəndidən, gün üzünə həsrət Əsgərandan, uca dağları, gözəl mənzərəsi ilə Laçından keçdi və nəhayət, qibləmiz, qürurumuz, qəlbimizin tacı olan Şuşaya çatdı.

Əziz Şuşa, mən səni elə bu cür təsəvvür edirdim. Yaxından sən daha



möhtəşəm, daha cəlallı, daha ecazkarsan. Hər daşının altında bir tarix yatır, hər qayanda bir igidin səsi, hər divarında bir nəfəs gizlənib. Qədim qala divarların, min illərin şahidi olan küçələrin, sıldırım qayaların gözoxşayan bir ehtişamla ucalır. İnsan gözünü çəkə bilmir bu mənzərədən. Amma mənim gördüyüm ən dərin mənzərə nə qalanın ucalığı, nə də küçələrin səssizliyi idi. Mənim üçün sən günü-gündən böyüyən, gözəlləşən bir pıçıltı idin.

Qarşında dayandığım an hiss etdim ki, sən nəfəs alırsan. Daşlarına, divarlarına toxunduqca sanki canlı olan bir varlığın qəlbinə əl uzadırdım. O divarların dərin çatları vardı, insan yarası kimi. Hər toxunuşumda həmin ağrını duyurdum. İçimdə hıçqırıq boğazıma düyünlənib yanaqlarımdan süzülürdü. Sən isə sakit, amma hər daşında qanlı xatirələri gizlədirdin. Küçələrində güllə izləri, divarlarında nifrətin qara ləkələri qalmışdı. Sənin susqunluğun illərin zülmündən, barbarlığından idi. Amma sən yıxılmadın. Çünki yaralarını şəhidlərin qanı sağaltdı.

O an qəlbim göynədi. Mənə elə gəldi ki, sənin hər dağıdılmış daşında bir ananın fəryadı, hər qırıq izində bir igidin "Vətən sağ olsun!" nidası yaşayır. Sən məni ağrılarınla sınağa çəkirdin, amma eyni zamanda güc verirdin. Çünki sən nəinki dağıdılmış bir qala idin, sən həm mərhəmətin, həm də səbrin timsalı idin. Qucağında qoruyanı da, canını verəni də eyni səxavətlə qarşılamısan.

İllərlə həsrət çəkmisən. Oğullarının qayıdışını, minarələrindən azan səsini, Vaqifə pənah olan misralarının səsləndiriləcəyini həsrətlə gözləmisən. Həsrətlə dayanıb susmusan, amma sınmamısan. Və nəhayət, gün gəlib. İgidlər qartal kimi qayaları aşaraq qoynuna daxil olanda sənin damarlarına şəhidlərin qanı axmağa başladı. Sən dirildin.

İndi divarlarına sarıldıqca gözlərim dolur. Bu gün sənin qoynunda poeziya günləri keçirilir. Vaqifin misraları yenə səslənir, tarın səsi dağlarına yayılır. Sən artıq yalnız kədərin deyil, həm də qürurun məkanısan. Sən şəhidlərin qanı ilə dirilmiş, igidlərin ayaq səsləri ilə oyadılmış müqəddəs yurdsan. Mən başımı aşağı salıb pıçıldayıram: biz səni xilas etməyə gələn oğullarımızın, şəhidlərimizin sayəsində qovuşduq. Biz onlara borcluyuq. Onların qəhrəmanlığı sayəsində ayaqdayıq.

Və sənin hər daşından cavab gəlir: "Qoy bu qələbə heç vaxt unudulmasın. Qoy şəhidlərin ruhu hər qayamda, hər daşımda əbədi yaşasın".

**Taliyə ABDULLAYEVA**
*"Şərq qapısı" qəzetinin əməkdaşı*

# Vətən müharibəsinə aparan yol:
## *Azərbaycançılıq ideologiyası, vətənpərvərlik təlimi*



**Nail ƏSGƏROV**

Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyası, vətənpərvərlik təlimi ölkəmizi əbədi müstəqillik yoluna çıxarmaqla həm də bugünkü reallıqların etibarlı təminatçısına çevrildi. Otuz il ərzində Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində elə bir gənc nəsil yetişdi ki, Azərbaycanın haqq səsini dünyaya bəyan etdi, torpaqlarımızın azadlığı uğrunda zəfər yürüşünə çıxdı, Vətən yolunda gözünü qırpmadan ölümə getdi. Ölkə başçısının da dediyi kimi: ***"Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular".***

Bəli, Ulu Öndərin ***"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"*** kəlamının müqəddəs tutulduğu ailədə tərbiyə alıb, Prezident İlham Əliyevin ***"Mən istəyirəm ki, gənclərimiz vətənpərvər, peşəkar, bilikli, savadlı olsunlar, Vətən sevgisi ilə böyüsünlər"*** ideyasına əsaslanan məktəbə qədəm qoyan uşaqlar, yeniyetmələr böyüdü, parlaq gələcəyimiz olan gənclərə çevrildilər. Hər biri bir Azərbaycan, hər biri bir Vətən daşı oldu. Tariximizi, mədəniyyətimizi, milli kimliyimizi yaşatdılar, yaşatdırdılar, ən yüksək şəkildə təbliğ etdilər dəyərlərimizi, adət-ənənələrimizi. Xocalının fəryadını, Laçının harayını, Füzulinin imdad səsini, Ağdamın Xirosimanı xatırladan sinəsini, İsa bulağının zümzüməsini, Xarıbülbülün nəğməsini unutmadılar, unutdurmadılar, daim car çəkdilər, bəyan etdilər dünyaya Qarabağın əzəli Azərbaycan torpağı olduğu həqiqətini. Qəlbləri "Müharibə başlasaydı, soydaşlarımızın, atalarımızın, analarımızın qisasını alardıq, milli ləyaqətimizi, milli qürurumuzu bərpa edərdik" nidaları ilə döyündü, alovlandı daim. Vətənə məhəbbət eşqi, vətənpərvərlik ruhu ilə kükrədi, pərvaz etdi könüllər.

Və həmin tarixi gün – 2020-ci il sentyabrın 27-si yetişdi. Minlərlə, on minlərlə gəncimiz səfərbərlik xidməti idarələrinin qarşısına toplaşaraq könüllü formada müharibəyə yollanmağa can atdılar. Böyükdən-kiçiyə hər kəs bir məqsəd uğrunda – "dəmir yumruq" ətrafında birləşməyə amadə dayanmışdı. Vəzifəsindən, statusundan, mövqeyindən asılı olmayaraq, hər kəs Ali Baş Komandanın əmrinə müntəzir əsgər idi. Damarında azərbaycanlı qanı axan hər kəsi bir amal – Azərbaycançılıq ideyası, vətənpərvərlik ruhu, təlimi, tərbiyəsi birləşdirirdi. "Ya Qarabağ, ya ölüm!", "Öldü var döndü yoxdu!" şüarları duyulurdu kəndin, şəhərin küçələrindən, elin, obanın hər qarışından. Üçrəngli bayrağa bürünmüşdü evlərin eyvanları, küçələrin, prospektlərin, meydanların ən hündür guşələri.

Ən gənc də "Yaşasın Ali Baş Komandan", "Var olsun ordumuz", "Qarabağa azadlıq", – deyirdi, ən qocaman da. Yetər artıq haqsızlıq, ədalətsizlik, nəhayət ki, son qoyulmalıdır dövranın bu amansız gərdişinə amalı ilə 50 milyon ayaqlanmışdı. Əzmlə, iradə ilə əl-ələ verib sentyabrın 27-dən zəfər yürüşünə çıxaraq 44 gündə dünyanı silkələyən, qəflət yuxusundan oyadan, haqq çırağını alovlandıran 50 milyon. Hər birinin ürəyi cəbhədə döyünür, hər birinin qəlbi səngərdə çiyin-çiyinə vuruşan Vətən sevdalılarıyla bir vururdu. Füzuli səddini yarıb keçərək Şuşada zəfər bayrağını qaldırmaq inamı ilə irəli atılmışdı Azərbaycanın qeyrətli, mərd oğulları. Qəzəbli baxışlar, qətiyyətli addımlar qarşısında heç bir maneə, heç bir səngər, sədd, qaya, dağ dayana bilməzdi. Və dayana da bilmədi. Ali Baş Komandanın ***"Qarabağ Azərbaycandır!"*** mübarək kəlamı ilə hər gün torpaqlarımızın bir-bir azadlığa qovuşmaq müjdəsini aldıq. İllərin həsrəti, hicranı, nisgili, kədəri sona yetdi. Sevinc göz yaşları bərq vurdu çöhrələrdə, xoşbəxtlik ab-havasına büründü ev-eşiyimiz. Üçrəngli bayrağımız bəzədi əzəli, əbədi yurd yerlərimizi. Qarabağımızın qaranlıq gecələrini aydın sabahlar əvəzlədi, əbədi bahar gəldi qış ömrünə yurdumuzun.

Bəli, bu gün əbədi qalib, əbədi müstəqil, əbədi suveren dövlətik. Başımız dik, alnımız açıqdır. Haqlı olaraq öyünürük, fəxr edirik. Xoşbəxt xalqıq. Müzəffər ölkəyik. Ərazi bütövlüyümüz, suverenliyimiz tam təmin olunub Ali Baş Komandanın siyasi iradəsi, ordumuzun qüdrəti, əsgər-zabitlərimizin şücaəti, birliyimiz, bərabərliyimiz, həmrəyliyimiz sayəsində. Həm müharibə qalibi, həm sülh müzəffəriyik. Qələbə, zəfər sədaları dünyanın dörd bir tərəfindən – Vaşinqtondan, Pekindən, əzəli-əbədi yurd yerlərimiz Xankəndidən, Şuşadan, Laçından, Zəngilandan, Naxçıvandan, bütöv Azərbaycandan ucalır göylərə. Azərbaycançılıq, milli həmrəylik, milli birlik sədalarının Naxçıvanı Azərbaycanımızın əsas hissəsi ilə birləşdirən Zəngəzur dəhlizindən eşidilməsi diləyi ilə şəhidlərimizin əziz xatirəsinə sonsuz, dərin hörmət və ehtiramlar olsun!

# Üzeyir bəy Hacıbəylinin yaradıcılığında yeni dramaturji janrlar, məzmun və ifadə çalarları

*Azərbaycan xalqı dünya mədəniyyətinə görkəmli şəxsiyyətlər bəxş etmişdir. XX əsrin qüdrətli sənətkarı Üzeyir Hacıbəyli də belə şəxsiyyətlərdəndir. Dahi bəstəkar həm də ədəbi-bədii aləmə həyatı yaxşı və dərindən bilən bir publisist kimi gəlmişdi. O, zamanın qabaqcıl ideyaları səviyyəsində dayanmağı, xalqının keçmişinə hörmət etməyi, onun milli ləyaqətini qorumağı baxımından yeni yaradıcılıq üfüqləri açdı. Üzeyir Hacıbəylinin ideyalarındakı məqsəd xalqının xeyrini, ictimai məramını düşündürən, onların təbliği üçün yeni yollar, üsullar və formalar tapmaqdan ibarət idi.*

*Dahi bəstəkar musiqi mədəniyyətimizə bir sıra yeni çalarlar, janrlar gətirmişdir. Gərgin fəaliyyəti dövründə bütün əzab və əziyyətlərə dözürdü və bu yolda dəhşətli çətinliklərlə üzləşməyə məcbur olurdu. Belə bir çətin zamanda o, bir an da olsa, öz əqidəsindən dönmədi, eləcə də ictimai mövqeyindən geri çəkilmədi. Əksinə, ildən-ilə öz gərgin fəaliyyəti ilə ucaldı, tərəqqiyə, maariflənməyə, böyük ehtiyacı olan doğma xalqına, torpağına daha dərindən bağlandı.*





Üzeyir bəy Hacıbəyli xalq yaradıcılığı, xalq musiqisi və xalq hikmətlərindən ilham alaraq xalq məsəli, zərbi məsəllər, atalar sözlərindən bəhrələnmişdir. Folklor üslubunu dərindən mənimsəmiş, topladığı xalq incilərindən ilham almışdı Üzeyir Hacıbəyli.

Dahi bəstəkar kiçik yaşlarından Azərbaycan nağıllarından, lətifələrindən, bayatı və mahnılarından, atalar sözləri və məsəllərindən bəhrələnmişdir. Üzeyir Hacıbəylinin uşaqlıq və gəncliyinin ilk çağları Şuşada keçmişdir. Şuşa yalnız öz təbii gözəlliyi, tarixi yaraşığı ilə deyil, həm də özünün elmə, mədəniyyətə, ədəbiyyat və incəsənətə verdiyi böyük şəxsiyyətləri ilə nəzəri cəlb etmişdir.

Azərbaycanın musiqi ocağı kimi şöhrət qazanan Şuşa şəhəri Üzeyir bəy üçün də ilk yaradıcılıq qaynağı idi. Üzeyir Hacıbəyli ilk uşaqlıq xatirələri haqqında yazırdı: "...Mən ilk musiqi təhsilimi uşaqlıq zamanı Şuşada, ən yaxşı xanəndə və sazəndələrdən almışam. O vaxt mən "Muğam" və "Təsnif" oxuyardım. Səsim xanəndələrin xoşuna gələrdi. Onlar məni oxudar və öyrədərdilər..." Üzeyir Hacıbəyli ibtidai təhsilini Şuşada Nikolayevski adına rus-tatar məktəbində almışdı. Uşaqlıqdan təbiətdən zövq alan, el ruhunda tərbiyələnən Üzeyir sənətə böyük həvəs göstərmiş, zəngin xalq yaradıcılığı ilə maraqlanmağa başlamışdır. Şagird ikən bir neçə kiçik nağıl toplamış, üzünü köçürmüş və bir kitabça tərtib etmişdir.

Artıq XX əsrin lap əvvəllərində Azərbaycan mədəniyyətinin, ictimai fikrinin inkişafında yeni bir dövr başlanırdı. Üzeyir Hacıbəyli bu dövrün yeni bir nümayəndəsi kimi mübarizəyə qoşulur. Bu təlatümlü dövrdə onun fəaliyyətinin məqsədi doğma xalqına xidmətdən, onun azadlığı uğrunda mübarizədən ibarət idi.

Seminariyaya daxil olduqdan sonra buranın müxtəlif millətlərdən olan qabaqcıl dünyagörüşlü insanları Üzeyirdə Vətən qürurunu daha da qüvvətləndirir. O, kütləvi fənlərlə yanaşı, bilavasitə musiqi təhsili və nəzəriyyəsi ilə bağlı olan elmlərlə də maraqlanır, bir sıra alətlərdə çalmağı öyrənir. Tələbəlik illəri haqqında Üzeyir Hacıbəyli yazır: "...Seminariyada skripkada, violonçeldə və nəfəsli alətlərdə çalmağı öyrəndim. Mən orada musiqi nəzəriyyəsi haqqında da azmaz məlumat ala bildim". Üzeyir Hacıbəylinin seminariya təhsili haqqındakı məlumatlarda diqqəti daha çox iki məsələ cəlb edir. Onlardan biri Üzeyirin xarakterinə tam uyğun olan vətəndaşlıq borcunu yerinə yetirmək cəhdi idi. Üzeyir Hacıbəyli boş yerə əmək və vaxt sərf etməmiş, hər günün qədrini bilmiş, hər anın ictimai dəyərini nəzərə almışdı.

İkincisi, həqiqi istedadını tapana, üzə çıxarana qədər özünü müxtəlif sənət sahələrində sınaqdan keçirmişdir. Gah müxtəlif musiqi alətlərində çalmış, gah rəsm çəkmiş, bəzən şən, gümrah olmuş, bəzən də uzun müddət fikrə dalmışdır. Bütün bunlarla yanaşı, o, seminariya illərində "Şərq musiqi və nəğmə məsələlərində... misilsiz avtoritet, tənqidçi və icraçı ustad Üzeyir" kimi tanınmışdır. Tələbəlikdə qazandığı müvəffəqiyyət qətiyyən gənc Üzeyiri razı salmırdı. Ona görə də daha ciddi, daha məhsuldar işləyir, xalqının ehtiyacını yüngülləşdirmək üçün yeni yollar axtarırdı. Hətta bir dəfə seminariyanın son kursunda ikən imtahan üçün "Mən gələcəkdə nə iş görəcəyəm" mövzusunda yazdığı inşada, "Mən məktəblərimiz üçün ana dilində tədris olunmaqdan ötrü dərs kitabları tərtib edəcəyəm" yazmışdı. Bu, əsl vətəndaşlıq idi. Gələcəkdə xalqın, Vətənin inkişafı yolunda bütün bilik və bacarığını əsirgəməyən bir gəncin, tələbə Üzeyirin andı idi.

1904-cü ildə Üzeyir Hacıbəyli Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra Şuşanın yaxınlığında Cəbrayılın Hadrut kənd məktəbinin 3-cü paralel sinfinə müəllim təyin olunur. Üzeyir Hacıbəyli yalnız dərs deməklə kifayətlənmir. Burada çalışdığı vaxtda o, bir sıra mətbuat orqanları ilə əlaqə saxlayırdı. "Kaspi" qəzetində "U" imzası ilə bir neçə məqaləsi çap olunur.

1905-ci ildə Üzeyir Hacıbəyli Hadrutdan Bakıya qayıdır və "Həyat" qəzetində çalışmağa başlayır. 1905-1908-ci illərədək Bibiheybət rayonunda və şəhərdə müəllimlik etməklə yanaşı, redaksiyalarda çalışır. Həmin dövrdə Bakı həyatı inqilablar şəhərinin ictimai-siyasi hadisələri gənc Üzeyirə təsirsiz qalmır. O, tez bir zamanda ictimai həyat axınına düşür, zamanın qabaqcıl ideyalarının təsiri altında onun dünyagörüşündə yeni meyillər yaranır.

Bildiyimiz kimi, XX əsrin birinci yarısında ölkəmizdə dahi bəstəkara, jurnalistə, dramaturqa və ictimai xadimə böyük ehtiramlar olduğu vaxtda o, müxtəlif janrlı əsərlərlə yanaşı, mədəniyyət və ədəbiyyat aləmində yeni səhifələr yazır və xalqı üçün öz yaradıcılıq töhfələrini ərməğan edirdi. Yaşadığı əsr onu özünün böyük oğlu, milli operanın banisi, musiqili komediya janrının ilk yaradıcısı, mahir jurnalist, yeni çalarlı publisistik ədəbiyyatın banilərindən biri, ilk maarif və mədəniyyət işçisi, qüdrətli dramaturq və güclü vətəndaş, yazıçı kimi qəbul etdi.

Böyük bəstəkarın yaradıcılıq hünərinin başqa bir sahəsini göstərən bədii publisistikası öz siyasi kəsəri, satirik təsvir üsulları, öz məzəli dili, xalq yumoru ünsürləri ilə adamı heyran edirdi. Üzeyir Hacıbəylinin yazıları ilə tanış olan xalq öz səadəti üçün döyünən ürəyin hərarətini duyur, istedadlı qələm sahibinin söhbətinin ləzzətindən doymaq bilmirdi.

Özünə qarşı son dərəcə tələbkar olan Üzeyir Hacıbəyli hər saat belə təzətəzə məlumatlar əldə etmək üçün çalışır və təbiətindəki narahatlıq ilə jurnalistika sənətindən irəli gələn operativlik bir-birinə qarışır, o bir ümman kimi təlatümə gəlirdi. Bu xüsusiyyət özünü iki cəhətdən göstərirdi: həm bədxahlarından birinin dediyi kimi, o, "bir budağa çıxıb çox budağı silkələyirdi". O, demək olar ki, "İrşad", "Tərəqqi", "Həqiqət", "Həyat" qəzetlərində hər gün məqalə dərc elətdirirdi. Dahi Üzeyir Hacıbəyli həm ciddi məqalə, həm də felyeton və ya satirik miniatürlərlə çıxış edirdi. O, bir jurnalist kimi öz yazıları üçün çox ustalıqla söz axtarır və onların ən münasibini xalqı üçün yazırdı.

Üzeyir Hacıbəyli yaradıcılığının ən mühüm xüsusiyyətləri gülüşlə bağlı olduğu kimi böyük bəstəkarın "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarının, felyeton, satirik hekayə və miniatürlərinin də mayası şən gülüşlə yoğrulmuşdur. O, böyük gülüş ustası idi. Bu gülüşləri həyatda müşayiət edir sonra özünün yazı üsluluna xas bir şəkildə xalqa təqdim edirdi.

Üzeyir bəy Azərbaycan musiqisində köklü dönüş yaratmış dahi bəstəkardır. Hələ XIX əsrin əvvəllərində şifahi xalq musiqi sənəti şəklində mövcud olan Azərbaycan milli musiqisini xalq musiqi xəzinəsinin sayəsində zənginləşdirdi. Azərbaycan və ümumiyyətlə, Şərq musiqisinin gələcək inkişaf perspektivləri, estetik prinsiplərini müəyyənləşdirdi.

Dahi Üzeyir "Arşın mal alan" musiqili komediyasını yazmaq haqqında hələ Qori Müəllimlər Seminariyasında oxuyarkən fikirləşir və qeydlər aparırdı. O bu operettanı 1913-cü ildə Sank-Peterburqda konservatoriyada oxuyarkən tamamlamışdır.

1914-cü il oktyabr ayının 25-də Bakıda H. Z.Tağıyevin teatrında "Arşın mal alan" operettasının premyerası olmuşdur. İlk tamaşanın yaradıcı heyəti belə idi: Əsgər – H.Q. Sarabski, Gülçöhrə – Ə. Ağdamski, Soltanbəy – Ə.Hüseynzadə, Cahan xala – Gülsabah xanım, Süleyman – M Terequlov, Vəli – H.Hüseynov ifa etmiş, rejissoru H.Ərəblinski və dirijoru M.Maqomayev olmuşdur.

"Arşın mal alan"ı populyarlığına və şöhrətinə görə heç bir musiqi əsəri ilə müqayisə etmək olmaz. 75-dən çox dildə tərcümə olunmuş 76 ölkənin 187 teatrında tamaşaya qoyulmuşdur.

Operettanın səhnə həyatından 100 ildən artıq bir vaxt keçsə də, ona tamaşaçı rəğbəti daha da artır. Bunun əsas səbəbi süjetin xalq həyatından alınmış epizodlara söykənməsidir. Operetta ekranlaşdırıldıqdan sonra daha da məşhurlaşmış və dünya kinoteatrlarında tamaşaçıların ən sevimli filmlərindən birinə çevrilmişdir.

Görkəmli bəstəkar xalq musiqisi haqqında fikirlərində yazırdı: "Xalq bəstəkarın yaratdığı musiqi əsərindən qəlbinə təsir edəcək qida tələb edir". Gənc bəstəkarlara xalq musiqisindən bəhrələnərək əsərlər yazmaqda tövsiyə edərək bildirirdi: "Bəstəkar xalqın öz doğma ana dili ilə danışmalıdır. Bunun üçün gənc bəstəkarlarımız xalq musiqi dilinin bütün qanunlarını düzgün mənimsəməli və aydın bir dildə danışmalıdır. Xalq öz arzularını, düşüncələrini doğma folkloru əsasında arzulayır. Buna görə də xalq musiqi dilinin bütün qanunlarını öyrənməli, sadə bir dillə yazmağa çalışmalıdırlar". Bəstəkarın bu fikirləri 1940-cı ildə ömrünün kamillik çağı yazmış olduğu məqaləsində öz əksini tapmışdır. Bir sözlə, Üzeyir gülüşü, hazırcavablığı xalqımıza gülüş çələngi bəxş etmişdir.

Azərbaycan xalqının maariflənməsi sahəsində dahi bəstəkar Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə professional musiqi tariximizin təməlini qoymaqla bərabər, dövri mətbuatda saysız-hesabsız əsərləri yer almışdır. Həm bir bəstəkar kimi, həm də yazıçı, jurnalist kimi, felyetonları, satirik miniatürlərinin məzmun və ideya, ifadə tərzinə görə fərqlənirdi. Xalqın maarifləndirilməsi yolunda xalq hikmətləri ilə zəngin saysız-hesabsız motivləri ilə söz xəzinəsinə yeni çalarlar gətirdi Üzeyir Hacıbəyli.

Zəngin xalq hikmətlərindən bəhrələnərək özünün düşündürən gülüş çələngini operettalarında obrazların dili ilə xalqına ərməğan etdi.

Dahi bəstəkarın əsərləri onun 140 illik yubileyində öz təravətini nəinki saxlamış, ona hər gün, hər an milyonlarla tamaşaçı məhəbbəti qazandırmaqdadır.

**Bənövşə RZAYEVA**
*Naxçıvan Dövlət Universitetinin müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

## DÜNYA xəbərləri

### Belçikada gənc oğlan və qızlara könüllü hərbi xidmət təklif olunacaq

Noyabr ayında Belçikanın bütün 17 yaşlı sakinlərinə könüllü hərbi xidmət proqramı barədə ətraflı məlumatın yer alacağı məktublar göndəriləcək. Bu barədə ölkənin Müdafiə Nazirliyinin çağırışçılara həsr edilmiş mətbuat konfransında bildirilib.

Ümumilikdə, təxminən, 130 min yeniyetmə məktub alacaq. Noyabr ayında hər bir vilayətdə canlı məlumatlandırıcı görüşlər keçiriləcək, ardınca isə rəqəmsal tədbirlər təşkil olunacaq. Müraciətlərin qəbulu 2026-cı ilin yanvarından başlayacaq.

Proqram 18-25 yaşarası oğlan və qızlar üçün nəzərdə tutulub. İştirakçılara xalis 2000 avro aylıq əməkhaqqı vəd edilir.

Xidmətə qəbul olunanlar quru qoşunlarında, Hərbi Dəniz Qüvvələrində və ya Hərbi Hava Qüvvələrində fəaliyyət göstərə, təhlükəsizliklə bağlı tapşırıqlar yerinə yetirə biləcəklər.

### Böyük Britaniyada ilk “superuniversitet” yaradılacaq

Böyük Britaniyada ilk dəfə bütün bir regionu əhatə edən “superuniversitet” yaradılacaq.

Bu, Kent və Qrinviç universitetlərinin birləşməsi nəticəsində baş tutacaq. Yeni ali təhsil müəssisəsi London və Cənub-Şərq Universitetlər Qrupu adlandırılacaq və 2026-cı ilin payızında başlayan akademik ildən etibarən vahid rektorluqla fəaliyyət göstərəcək.

İngiltərənin ali təhsil tənzimləyicisi olan Tələbələr üzrə Ofis (OfS) bu addımı alqışlayıb və qeyd edib ki, iqtisadi çətinliklərlə üzləşən digər universitetlər də oxşar variantları nəzərdən keçirə bilərlər. Hazırda İngiltərədəki universitetlərin, təxminən, 40 faizinin maliyyə kəsiri ilə üzləşdiyi bildirilir.

Böyük Britaniyanın Təhsil Nazirliyi isə açıqlamasında bu kimi innovativ yanaşmaları dəstəklədiyini vurğulayıb. Yeni universitet mövcud kampuslarda fəaliyyətini davam etdirəcək. Artıq Medvey şəhərində hər iki universitetin tələbələri kitabxana da daxil olmaqla bir sıra obyektlərdən birgə istifadə edirlər.

### “Apple” bəzi “iPhone” modellərini satışdan çıxarıb

Dünyada məşhur texnologiya nəhəngi “Apple” bir neçə smartfon modelini özünün internet mağazasından çıxarıb.

Şirkət 2023-cü ildə buraxılan “iPhone 16 Pro” və “iPhone 16 Pro Max”, “iPhone 15” və “iPhone 15 Plus” flaqman modellərinin satışını dayandırıb. Hazırda “Apple” şirkətinin rəsmi satışda olan smartfon seriyasına “iPhone 17”, “iPhone 17 Pro”, “iPhone 17 Pro Max” və tamamilə yeni model olan “iPhone 17 Air”, həmçinin “iPhone 16”, “iPhone 16 Plus” və “iPhone 16e” daxildir.

Qeyd edək ki, satışdan çıxarılan “iPhone” modellərini dünya üzrə pərakəndə satış şəbəkələrində tapmaq mümkündür.

Xatırladaq ki, “Apple” sentyabrın 9-da “iPhone 17” seriyasını təqdim edib. Yeni seriyaya “iPhone 17”, “iPhone 17 Pro”, “iPhone 17 Pro Max” və tamamilə yeni cihaz olan “iPhone 17 Air” daxildir.







# Saxta məktəbli formalarını necə ayırd etmək olar?

*Yeni tədris ilinin başlanmasına sayılı günlər qaldıqca valideynlər üçün ən vacib məsələlərdən biri övladlarının məktəb ləvazimatlarını və geyimlərini almaq olur. Xüsusilə də məktəb formaları həm rahatlıq, həm də keyfiyyət baxımından valideynlərin diqqət mərkəzindədir. Lakin hər il müşahidə olunan əsas problemlərdən biri də saxta və keyfiyyətsiz məktəbli formalarının bazara çıxarılmasıdır. Bu geyimlər xarici görünüşcə orijinala çox bənzəsə də, materialın tərkibi, davamlılığı və sağlamlığa təsiri baxımından fərqlənir. Bəs saxta məktəbli formasını necə ayırd etmək olar? Bunun üçün həm valideynlərin təcrübəsinə, həm də satıcıların fikirlərinə nəzər saldıq.*

Naxçıvanda yaşayan 2 uşaq anası Fəxriyyə xanım məktəbli formaları ilə bağlı ən böyük çətinliyi məhz saxta məhsullarla rastlaşmaq olduğunu deyir: “Ötən il qızım üçün məktəbli forması almışdım. İlk baxışdan yaxşı görünürdü, amma bir neçə dəfə yuyulandan sonra rəngi soldu və tikişləri söküldü. Ən pis tərəfi isə odur ki, uşaq geyinərkən daim narahat olurdu. Həkim dedi ki, material keyfiyyətsiz olduğuna görə belə problemlər yaranır. Mən də anladım ki, aldığım forma saxta imiş”.

Valideynin sözlərinə görə, saxta məhsulları tanımaq o qədər də asan deyil. Çünki satıcılar bu geyimləri orijinal kimi təqdim edir. Fəxriyyə xanım deyir ki, indi forma alarkən ilk olaraq etiketə diqqət edir, hansı materialdan hazırlandığını yoxlayır: “Əgər etiketdə pambıq yazılıbsa, amma əlimlə toxunanda süni parça hiss olunursa, dərhal şübhələnirəm. Həmçinin qiyməti də nəzərə alıram. Əgər digər mağazalarda 30-40 manata satılan formanın eynisini biri 20 manata təklif edirsə, deməli, burada nəsə var. Uşağın sağlamlığı hər şeydən önəmlidir”.

Şəhərin mərkəzində məktəbli geyimləri satışı ilə məşğul olan Rza Rzayev isə bildirir ki, saxta formaların bazara çıxması həm valideynlər, həm də dürüst satıcılar üçün problem yaradır: “Orijinal məktəbli formaları xüsusi istehsal müəssisələrində hazırlanır, sertifikatlaşdırılır və keyfiyyətə nəzarətdən keçir. Lakin bəzi satıcılar xarici ölkələrdən ucuz parçalar gətirib oxşar formalar tikdirirlər. Bu geyimlər çox vaxt keyfiyyətsiz olur, amma üzərinə orijinala oxşar nişanlar vururlar. Buna görə də müştəri üçün seçmək çətinləşir”.

Satıcının sözlərinə görə, fərqi müəyyən etmək üçün bir neçə əsas məqam var. İlk olaraq material önəmlidir. Orijinal məktəb formaları, əsasən, pambıq və ya pambıq qarışığı olan materiallardan tikilir, bədənə rahat oturur və dərini qıcıqlandırmır. Saxta geyimlərdə isə sintetik parça üstünlük təşkil edir və uşaq geyinəndə tez-tez tərləyir. Digər bir göstərici tikiş keyfiyyətidir. Keyfiyyətli geyimlərin tikişi səliqəli və möhkəm olur, halbuki saxta məhsullarda ipliklər sallanır, tikişlər isə əyri və natamam görünür. Etiket və istehsalçı haqqında məlumat da böyük rol oynayır. Orijinal formaların etiketində istehsalçı zavodun adı, ünvanı və istifadə qaydaları dəqiq göstərilir, saxta geyimlərdə isə bu məlumat ya natamam, ya da tamamilə saxta olur. Ən bariz fərqlərdən biri isə qiymətlə bağlıdır. Keyfiyyətli məktəb geyimləri müəyyən standartlara uyğun olaraq satılır, əgər hansısa məhsulun qiyməti həddən artıq ucuzdursa, deməli, onun saxta olma ehtimalı çox yüksəkdir.

Saxta məktəbli formalarının bazarda yayılması, sadəcə, ticarət məsələsi deyil, həm də sosial və sağlamlıqla bağlı ciddi problemdir. Burada ən çox zərər çəkənlər isə, şübhəsiz ki, məktəbli uşaqlardır. Çünki onların dərisi daha həssasdır və keyfiyyətsiz geyimlərdən ən tez onlar təsirlənirlər. Valideynlərin dəfələrlə təcrübə ilə öyrəndiyi bir həqiqət var ki, ucuzluğa aldanmaqla əldə edilən forma nə uşağın sağlamlığına, nə də ailə büdcəsinə fayda gətirir. Əksinə, saxta geyimlər çox tez sıradan çıxdığı üçün bir neçə dəfə yenisini almaq məcburiyyəti yaranır və nəticədə, ailənin xərci daha da artır.

Saxta məhsullar, həmçinin ölkə iqtisadiyyatına da zərbə vurur. Çünki qeyri-leqal yollarla gətirilən və satılan bu məhsullar vergidən yayınır, dövlət büdcəsinə heç bir töhfə vermir. Halbuki keyfiyyətli, rəsmi istehsalçıdan alınan məhsullar həm sahibkarı, həm də ölkə iqtisadiyyatını dəstəkləyir. Bu baxımdan, dövlət orqanlarının bazarda nəzarəti gücləndirməsi, valideynlərin isə maarifləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

**Elnurə CƏFƏROVA**

## Ümumrespublika Təmizlik Marafonu çərçivəsində Heydər Əliyev su anbarının ətrafı tullantılardan təmizlənib



Ümumrespublika Təmizlik Marafonu çərçivəsində 5 sentyabr tarixdə Heydər Əliyev su anbarının ətrafında təmizlik aksiyası keçirilib.

“Təmiz ölkəm!” devizi ilə keçirilən aksiyada Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yanındakı və tabeliyindəki qurumların əməkdaşları, eyni zamanda ekokönüllülər və “ASAN” könüllüləri iştirak ediblər. Ərazi, ümumilikdə, 140 kiloqramdan artıq tullantıdan təmizlənib.

Təmizlik aksiyalarının keçirilməsində məqsəd ətraf mühitin qorunması, ictimaiyyət arasında ekoloji şüurun artırılması, təbiətə qarşı məsuliyyətli davranışın təşviq olunması, eləcə də tullantıların düzgün idarə olunmasına diqqətin cəlb edilməsidir.

## Naxçıvanlı şahmatçılar Bitlisdə keçirilən beynəlxalq turnirdə iştirak ediblər



2-7 sentyabr tarixlərdə Türkiyənin Bitlis şəhərində “Betav Uluslararası Açık Satranç Turnuvası” beynəlxalq şahmat turniri keçirilib. Yarışda 16 ölkədən 400-ə yaxın şahmatçı üç kateqoriyada mükafatlar üçün mübarizə aparıb.

Naxçıvandan turnirə qatılan 20 şahmatçıdan ikisi uğurlu nəticəyə nail olub. Beynəlxalq usta Pərviz Qasımov ən reytinqli şahmatçıların mübarizə apardığı “A” kateqoriyasında 9 oyuna 6,5 xal toplayaraq ümumi sıralamada 8-ci olub. Birinci yerdən cəmi yarım xal fərqi olan şahmatçımız turniri ilk onluqda tamamlayan mükafatçılardan biri olub.

Digər təmsilçimiz Xatun Nəcəfova isə “B” kateqoriyasında 5 xal toplayaraq qadınlar arasında ikinci yerin sahibi olub. Şahmatçımız liderlə eyni göstəriciyə malik olsa da, əmsal fərqinə görə gümüş medala layiq görülüb.

### İtmişdir

Şərur rayonu, Zeyvə kəndində yerləşən Seyidbəyli Mirqadir Mirhüseyn oğluna məxsus olan 102013008733 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kənd sakini İbrahimov Məmməd Nəsrulla oğluna məxsus JN-79$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kəndində yaşamış Əsgərov Süleyman Bayram oğluna məxsus JN-570$^{A}$ və JN-570$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kənd sakini Qurbanov Qurban Bayram oğlunun adına olan JN-518$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kənd sakini Əliyeva Bilqeyis Yelmar qızı və ailə üzvlərinin adına verilmiş JN-2548 nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kənd sakini Mehdiyeva Asya Məmməd qızının adına olan JN-1403$^{A}$ nömrəli, 10101008 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qoşadizə məhəlləsində Əliyev Abbas Nəbi oğlunun adına olan 401$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Vəliyev Rəsul Əyyub oğlunun adına olan JN-1002$^{A}$ nömrəli, 10206005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kükü kəndində Hüseynov Möhtəşəm Mükərrəm oğlunun adına verilmiş JN-016$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kənd sakini Seyidov Mirəhməd Mirhəşim oğlunun adına olan MN-049348 seriya nömrəli veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Qızıl Qışlaq kəndində Həsənov Vəliyullah Qara oğlunun adına verilmiş JN-0108$^{D}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qahab kənd sakini Əbilov Rasim Bəkir oğlunun adına olan JN-731$^{A}$ nömrəli, 10306018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kəndində yaşamış Hüseynov Kamil Hüseyn oğlunun adına olan JN-501$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Badamlı kəndində Rzayeva Ruqiyə Piri qızının adına verilmiş JN-041$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kənd sakini Fərzəliyev Hüseyn Fərzalı oğlunun adına olan JN-291 nömrəli, 10102160 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kənd sakini Fərzəliyev Nofəl Hüseyn oğlunun adına olan JN-292 nömrəli, 10102160 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kənd sakini Fərzəliyev Vasif Hüseyn oğlunun adına olan JN-293 nömrəli, 10102160 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ukrayna Respublikası Dnepropetrovsk şəhəri, Dnepropetrovsk Dəmir Yolları Mühəndisləri İnstitutunun tələbəsi Seyidov Yusif Mirabbas oğluna məxsus 930420 nömrəli qiymət kitabçası itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Xoşkeşin kənd sakini Rzazadə Sahil Rza oğlunun adına olan MN-0047384 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Türkiyə vətəndaşı Necmettin Güclüyə məxsus vətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441
Çapa imzalanmışdır 00:00
Tiraj: 650. Sifariş № 233
Nömrəyə məsul: Ceyhun Məmmədov, Günay Hacıyeva, Elnurə Cəfərova
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.